

# unibank | İLLİK HESABAT 2010

İLLİK HESABAT 2010

# Ön söz

Diqqətinizə təqdim olunan İllik hesabatın konseptinin kökləri ölkənin tarixinə, daha dəqiq desək, Azərbaycan silahının tarixinə gedib çıxır. Məlumdur ki, bizim silah tariximiz də xalqımızın tarixi kimi qədim və mürəkkəbdir. Silah həmişə özümüzü təhlükələrdən qorumağa, daha böyük nailiyyətlər əldə etməyə, ən sərt və çətin şəraitdə əyilməz qalmağa və doğru yolda addımlamağa kömək edib. Bundan başqa, qədim Şərqin bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da silah, ilk növbədə, öz ləyaqətini üzərindəki mahir işləmə, xüsusi material və yadda qalan bəzəklərlə vurğulamaq istəyən yaraq sahiblərinin bir iftixar rəmzi olub.

Bizim anlayışmızda isə silah, risklərin idarə olunması üçün özünəməxsus bir alətdir və bu alət hər zaman inkişaf etdirilməli və təkmilləşdirilməlidir. Bu səbəbdən biz Azərbaycan Tarixi Muzeyinin XV-XIX əsrlərə aid silah kolleksiyasından bir neçə nadir, lakin ən parlaq nümunələri seçmiş və bunu, ilk növbədə, həmin silahları şərəflə daşımış, döyüşlərə hazırlamış və onlardan lazımı qaydada istifadə etmiş şəxslərin xatirəsini əziz tutmaq üçün etmişik. Bu təsvirlər həmçinin müasir bank xidmətləri bazarında hökm sürən rəqabət ruhunu hiss etməyə kömək edəcək. Ümidvarıq ki, «Unibank» ASC-nin İllik Hesabatı ilə tanış olarkən, 2010-cu ilin yekunlarına dair şərhlərimizlə bərabər Siz həmçinin poladın cingiltisini, barıtın iyini və əcdadlarımızın döyüş ruhunu da hiss edəcəksiniz.





# MÜNDƏRİCAT


| | |
|---|---|
| Müşahidə Şurası sədrinin müraciəti | 6 |
| İdarə Heyəti sədrinin müraciəti | 10 |
| Azərbaycan iqtisadiyyati 2010-cu ildə | 14 |
| Azərbaycanın bank sektoru | 18 |
| Səhmdarlar və kapital | 24 |
| Yeni strategiya | 28 |
| Məhsullar və xidmətlər | 32 |
| Pərakəndə biznes | 32 |
| Məhsul xəttinin inkişafı | 32 |
| Kredit məhsulları | 32 |
| Depozit məhsulları | 33 |
| Mikrokreditlər | 33 |
| İpoteka kreditləri | 34 |
| Bank kartları | 34 |
| Pul köçürmələri | 35 |
| Hesablaşmalar və elektron kommersiya | 36 |
| "Unibank" endirim klubu | 37 |
| Xidmət şəbəkəsi | 40 |
| Korporativ biznesin dəstəklənməsi | 44 |
| Beynəlxalq reytinqlər | 48 |
| İnsan resursları | 49 |
| İnformasiya texnologiyaları və innovasiyalar | 52 |
| Törəmə şirkətlər | 53 |
| Sosial məsuliyyət | 56 |





# Şeşpər

XVII - XVIII əsrlər.
Üzəri qızıl ilə işlənib, nəbati naxışlıdır. Qarabağ xanı İbrahimxəlil xana məxsusdur.
Şeşpərlər əsas hakimiyyət atributu kimi rəsmi mərasimlərdə istifadə edilirdi.

# Müşahidə Şurası sədrinin müraciəti

## Hörmətli səhmdarlar və tərəfdaşlar!

İllik hesabat, bizim üçün, «Unibank» ASC-nin səhmdarları üçün sadəcə olaraq növbəti maliyyə ilinin yekunlarını əks etdirən rəqəm və göstəricilərdən ibarət sənəd deyil. Şübhəsiz ki, aparıcı banklar üçün bu, hesabatlılıq və imicin vacib elementidir. Lakin mənim üçün, bir səhmdar kimi, ilin yekunlarına dair hesabatda ən vacib məqam – nailiyyətlərimiz barədə tərəfdaşlara məlumat vermək, yeni layihələrin başlanmasını elan etmək, habelə, bazardakı vəziyyətlə bağlı fikirlərimizi tərəfdaşların nəzər nöqtəsi ilə tutuşdurmaq imkanıdır. Məsələ bundadır ki, biz yalnız düşüncələrimizi, nailiyyətlərimizi və maliyyə göstəricilərimizi bir yerdə tutuşdurduqda bu günün reallıqları barədə təsvir ala bilərik. Həmin göstəricilər bizim hansı yolla irəliləyəcəyimizi, nələrin artıq arxada qaldığını və hansı məqsədlərə hələ nail olunmadığını göstərir. Başlanğıc üçün qeyd edim ki, hələ bir il əvvəl bizim hamımıza qlobal iqtisadi böhranın nəticələrinin ən ağır dövrünün Azərbaycanda artıq arxada qaldığını bildirirdilər. Bununla yanaşı, 2010-cu ilin kəskin qeyri-müəyyənlik ili olacağı, biznesin bərpası prosesinin necə ağır olunacağı və qaçılmaz geriləmələrlə müşayiət olacağı barədə proqnoz verilirdi. Lakin, biz nəinki geriləmədik, həm də müştərilərə qarşı addım ataraq xidmətlərimizin həm dəyərini, həm də keyfiyyətini optimallaşdırdıq. Görülən tədbirlər tezliklə bəhrəsini verdi. Mən hətta deyərdim ki, 2010-cu ilin nəticələri ilə həm Bankın İdarə Heyəti, həm də əməkdaşları fəxr edə bilərlər.

Qeyd edim ki, hesabat ili aktivlərin həcminin deyil, onların keyfiyyətinin sürətlə artdığı bir il olub ki, bu da olduqca vacib amildir. Bundan əlavə, ötən il müştərilərin etimadının qazanılmasında da rekord göstəricilər əldə olunub. Gəlir səviyyəsindən asılı olmayaraq minlərlə vətəndaş 2010-cu ildə «Unibank»ın müştərisinə çevrilib. Bundan əlavə, hazırda, demək olar ki, bütün makroiqtisadi amillər Azərbaycanda biznesin gələcəkdə də inkişaf edəcəyindən və ilk növbədə istehlak səviyyəsinin və əmanətlərin artacağından xəbər verir. Bu, bank xidmətlərinə olan tələbatın davamlı və artıq uzunmüddətli olaraq artması üçün zəmin yaradır.

İstehlakın, əmanətlərin artımı, kiçik və orta sahibkarlığın inkişafı və bütün bunların müştəri etimadının artımı ilə üst-üstə düşməsi «Unibank»ın nümunəvi standartları və etibarlılığı ilə özünə şöhrət qazanmış Bank olduğunun özünəməxsus bir təcəssümüdür. Pərakəndə əməliyyatların inkişafı tendensiyasının özü, artıq indi «Unibank»-ın bazarın digər iştirakçılarından çox irəlidə olduğundan xəbər verir.

Bankın yüksək artım templərini «Unibank» ASC-nin kapitalına il ərzində 15 milyonluq vəsait yatırmış səhmdarlar da dəstəklədilər. İndi isə biz məmnunluqla qeyd edə bilərik ki, bizim Bankımız yaxşı kapitallaşdırılıb. Həm də, kapitallaşmanın hazırkı səviyyəsi gələcək inkişaf üçün də kifayətdir. Bu vəsaitlər şəbəkənin davamlı artımı və inkişafı üçün sabit bünövrəni təmin edir. Burada xüsusilə nəzərə alınmalıdır ki, kreditləşmə istiqaməti əvvəl də olduğu kimi, «Unibank»ın aktivlərinin böyük bir hissəsini təşkil edir.

Müşahidə Şurasının adından ötən ilə yekun vuraraq, Bankın yeni strategiyasından danışmaya bilmərəm. Həmin strategiya nəinki mühafizəkar deyil, həmçinin bizim biznesi artıq özlərinin uğurlu olduqlarını sübut etmiş şirkətlərlə və ya riteyl-bankinqdəki keyfiyyətli borcalanlarla məhdudlaşdırmır. Hazırda «Unibank»-ın əsas məqsədi kreditlərdən daha çox, pərakəndə və korporativ müştərilər üçün məhsuldar təklifin universallaşdırılmasıdır. Biz orta biznesin və özəl sahibkarlığın inkişafında böyük potensial görürük ki, bunlar da haqlı olaraq Azərbaycan iqtisadiyyatının «inkişaf lokomotivləri» hesab olunurlar.

Şübhəsiz ki, 2010-cu ilin nailiyyətləri sırasına göstərilən xidmətlərin texnolojiliyinin artımını, filial şəbəkəsinin və xidmətlər çeşidinin daha da genişlənməsini, habelə Bankın sosial aktivliyinin artımını da əlavə etmək olar. Bu nailiyyətlər Bankın ölkənin maliyyə xidmətləri bazarında müştəriyə istiqamətlənmiş və rəqabət qabiliyyətli olduğundan xəbər verən vacib üstünlüklərə çevrilib. Bankın fəaliyyətinin ictimaiyyət tərəfindən qəbul olunmasının güclü iqtisadi tərkib hissəsi var. Bunlar - müştərilərin, tərəfdaşların və sərmayədarların etimadıdır.

Müşahidə Şurası Bankın inkişafına verdiyi qiymətəgəlməz töhfəyə və biznesin aparılmasına məsuliyyətli yanaşmaya görə İdarə Heyətinə öz səmimi minnətdarlığını bildirir. Mən Bankın bütün əməkdaşlarına da minnətdarlığımı ifadə etmək istərdim. Onların bir çoxu Bankımızın inkişafı istiqamətində ikiqat səylə çalışır və onu bütün səhmdarların qürur mənbəyinə çevirirlər.



Eldar Qəribov
«Unibank» ASC Müşahidə Şurasının sədri

# MÜŞAHİDƏ ŞURASI



Eldar Qəribov
Müşahidə Şurasının sədri



Emin Quliyev
Müşahidə Şurasının sədr müavini



Elxan Qəribli
Müşahidə Şurasının üzvü



İqor Yakovenko
Müşahidə Şurasının üzvü



Samir Balayev
Müşahidə Şurası sədrinin müşaviri



Andreas Zeisler
Müşahidə Şurasının üzvü



Julian Hilli
Müşahidə Şurasının üzvü





# Xəncər

XVIII əsrin sonu – XIX əsrin əvvəlinə aid soyuq silahdır.
Tiyəsi poladdandır, qın və qəbzəsinin üzəri nəbati ornamentlərlə bəzədilmişdir.
Dəstəyi ağ sümükdəndir.

# İdarə Heyəti sədrinin müraciəti

Əziz dostlar!

Sizə təqdim olunan «Unibank» ASC-nin 2010-cu il üçün hesabatıdır. Hesabat ilinin yekunları göstərdi ki, bu gün ölkənin bank sektorunda yeni yüksəlişdən danışmaq olar. Ötən ilin həm Azərbaycanda, həm də dünyanın digər ölkələrindəki maliyyə təsisatları üçün kifayət qədər çətin il olmasına baxmayaraq, 2010-cu ili həm də uğurlu il adlandırmaq olar. Ən azı ona görə ki, 2010-cu il bizi bazarda doğru biznes-modeli qurduğumuza və bazarda düzgün mövqe tutduğumuza inandırdı.

Doğru strategiya sayəsində biz nəinki əsas fəaliyyət istiqamətləri üzrə bazardakı payımızı saxlamağa, bəzi hallarda isə onu artırmağa nail olmuşuq. «Unibank» pərakəndə biznesdə xüsusilə əhəmiyyətli uğurlar əldə edib. Biz əhalidən vəsaitlərin cəlb olunması, ipoteka, pul köçürmələri, avtokreditlər sahəsində mövqelərimizi genişləndirmişik, fiziki şəxslər üçün nəzərdə tutulan məhsullarımızın çeşidini artırmışıq. Hər birinə «Unibank»ın resurslarından istifadə edilməklə optimal həllərin təklif olunduğu korporativ müştərilərlə iş də yaxşı nəticələr verir. Təsadüfi deyil ki, 2010-cu ildə Bank aktivlərin keyfiyyətini yaxşılaşdırmağa, vaxtı ötmüş və problemli borcların həcmini xeyli dərəcədə azaltmağa nail olmuş, ehtiyatları artırmış, ən əsası isə, öz mövqelərində özünə inam əldə etmişdir. Biz biznes-proseslərin və texnologiyaların gələcək inkişafına istiqamətlənmiş irimiqyaslı, daxili təşkilati dəyişiklərə də maksimum diqqət ayıra bilmişik. Bank tərəfindən yeni, ortamüddətli strategiya qəbul olunub, prosessinq mərkəzi ilə kart hesablarının sinxronlaşdırılması mümkün olub, kredit ərizələrinin nəzərdən keçirilməsi və qərar qəbulu üçün avtomatlaşdırılmış sistem tətbiq edilib, skorinq sistemi təkmilləşdirilib, İnternet-bankinq alətləri xeyli genişləndirilib.

Əvvəllər də olduğu kimi, «Unibank» bütün xidmət şəbəkəsi üzrə həm korporativ, həm də fərdi müştərilər üçün yüksək servis səviyyəsinə böyük önəm verir. Biz mövcud olduğumuz və Bakıdan ən uzaq yerləşmiş bölgələrdə belə müştərilərimizin paytaxtda olduğu kimi eyni  imkanlar yaratmağa çalışırıq. Bunun üçün yüksək texnoloji sistemlərin inkişafı və tətbiqi həyata keçirilir. İldən-ilə bu sistemlər daha da təkmilləşir, onlara yeni funksiyalar əlavə olunur ki, bu da Bankla işi rahat, təhlükəsiz və xoş edir.

«Unibank» üçün yenə də əməkdaşlar birinci dərəcəli əhəmiyyət kəsb edən dəyərlərdən biridirlər. Biz fəxr edirik ki, hazırda «Unibank»ı hər bir mənada əsl Komanda adlandırmaq olar, və bu heç də dəbdə olan söz xətrinə deyilmir. Son illər Bank təhsil proqramlarının işlənib hazırlanmasına, karyeranın qiymətləndirilməsi və planlaşdırılması sisteminin qurulmasına xüsusi diqqət yetirir. Buna görə də, biz illik hesabatda əməkdaşlarımızın səyləri sayəsində əldə olunan nəticələri təqdim etməkdən məmnunuq. Onların peşəkarlığı və yüksək motivasiyası sayəsində Bank bazarın artım templərini qabaqlamağa nail olur. Aydındır ki, bu iş diqqətdən kənarda qalmır və Bankın nailiyyətlərində ən əsas meyar loyallıq və müştərilərin etimadı olaraq qalır.

Getdikcə daha çox şəxslər və şirkətlər özlərinə «Unibank»ı maliyyə tərəfdaşı seçirlər. Buna sübut olaraq müştərilərin ümumi sayının artmasını və Bankın təklif etdiyi yeni məhsullara yüksək tələbatı göstərmək olar.

Mən əməkdaşlarımıza peşəkarlıq və fədakarlığa görə səmimi qəlbdən minnətdaram. İcazə verin, bizim bütün müştərilərimizə və tərəfdaşlarımıza etimad və loyallığa görə təşəkkürümü bildirim. Əminəm ki, 2011-ci ildə «Unibank» ona göstərilən etimadın əsaslı olduğunu sübut etmək üçün hər şey edəcək və bizi seçənlər üçün yeni üstünlüklər yaradacaq.

Hörmətlə,



Faiq Hüseynov
«Unibank» ASC İdarə Heyətinin sədri

# İDARƏ HEYƏTİ



## Faiq Hüseynov
İdarə Heyətinin sədri



## Faiq Zeynalov
İdarə Heyəti sədrinin 1-ci müavini,



## Emin Rəsulzadə
İdarə Heyətinin üzvü,
Maliyyə üzrə direktor



## Vaqif Qəribli
İdarə Heyətinin üzvü,
Korporativ xidmətlər üzrə direktor



## Vadim Qədirov
İdarə Heyətinin üzvü,
Biznesin inzibatiləşdirilməsi və dəstəklənməsi üzrə direktor



## Fazil Məmmədov
İdarə Heyətinin üzvü,
Risk-menecment üzrə direktor





# Tapança

XIX əsrin əsas odlu silahı.
Lüləsi poladdandır, dəstəyin üzəri gümüşü lövhələrlə əhatələnmişdir. Açar hissəsi qızıl işləmələrlə bəzədilmişdir.

# Azərbaycan iqtisadiyyatı 2010-cu ildə

Azərbaycanın iqtisadi həyatında son illər ərzində müşahidə olunan inkişaf 2010-cu ildə də davam edib. İstehsal və xidmət sahələrində bərpa olunan artım makroiqtisadi göstəricilər üzrə ölkəmizin yenidən öncüllər sırasında olduğunu təsdiqlədi. Ölkənin inkişafını xarakterizə edən əsas göstərici - Ümumi Daxili Məhsul istehsalı 5% və ya müqayisəli qiymətlərlə 1,8 milyard manat artaraq, 41,6 milyard manata çatmışdır. ÜDM-in 52,6% məhz sənaye sahələrində, 5,4% kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatında, 7,5% tikinti kompleksində, 7,6%i ticarət və pullu xidmət sahələrində, 6% nəqliyyatda, 1,9% rabitədə, 11,9% digər xidmətlər və sosial sahələrdə yaradılmışdır. Eyni zamanda, Ümumi Daxili Məhsulun 7,1% idxala xalis vergilərin payına düşmüşdür. Maraqlıdır ki, neft sektorunda ÜDM istehsalı 1,8%, qeyri-neft sektorunda isə daha çox - 7,9% artıb. Adambaşına 4653,3 manatlıq




(5797,8 ABŞ dolları), yaxud 2009-cu ildəkindən 3,7% çox əlavə dəyər istehsal olunmuşdur.
Sənaye. Sənaye müəssisələrində 2010-cu ildə 27,4 milyard manatlıq məhsul istehsal olunaraq 2009-cu illə müqayisədə 2,6% artmışdır. Sənaye məhsulunun istehsalından 75,8% mədənçıxarma sənayesinin payına düşür. Bu sahədə ötən il 50,8 milyon ton neft və 16,7 milyard kubmetr əmtəəlik qaz hasil olunub. Mədənçıxarma bölməsində istehsalın həcmi 20,8 milyard manat olmaqla, ötən ilin müvafiq dövrünün səviyyəsini 1,1% üstələmişdir. Sahənin əsas məhsulu hesab olunan xam neft hasilatı 2009-cu il ilə müqayisədə 0,9%, təbii qaz hasilatı isə 2,1% artıb.

Emal sənayedəki istehsal ümumi məhsulunun 19,1% təşkil etmişdir, bu zaman qida məhsulları istehsalı 2,4%, içki istehsalı 11,8%, geyim istehsalı 10,3%, mebeldən başqa ağacın emalı və ağacdan məmulatlar istehsalı 7,5%, kağız və karton istehsalı 25,5%, poliqrafiya fəaliyyəti və yazılmış məlumatların daşıyıcılara köçürülməsi 10,0%, neft məhsulları istehsalı 8,8%, kimya sənayesi məhsulları istehsalı 16,2%, metallurgiya sənayesi məhsulları istehsalı 44,6%, kompüter, elektron və optik məhsulların istehsalı 15,9%, elektrik avadanlıqları istehsalı 82,8%, maşın və avadanlıqlar istehsalı 93,4%, avtomobil, qoşqu və yarımqoşqular istehsalı 48,4 dəfə artmışdır. Ümumi hesabda sənaye məhsulu istehsalı milli iqtisadiyyatın qeyri-neft bölməsində 6,6%, neft sektorunda isə yalnız 1,7% artmışdır. Sənayenin qeyri-neft bölməsində məhsul istehsalı 5 milyard manata bərabər olmuşdur.

2010-cu ilin yekunlarına görə sənaye sektorunda 165 min nəfərdən çox işçi çalışmışdır. Onların 21,1% mədənçıxarma, 48,3% emal, 17,4% elektrik enerjisi və qaz təchizatı, 13,2% isə su təchizatı və çirkli suların təmizlənməsi bölməsində məşğul olmuşlar. Sənaye işçilərinin orta aylıq əmək haqqı il ərzində 10% şox artmışdır və 462 manata çatmışdır. İlin yekunlarına görə özəl sənaye müəssisələrində işçilərin əmək haqqı 588 manat təşkil etmişdir.

Kənd təsərrüfatı. 2010-cu ildə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 3,9 milyard manat təşkil edərək 2009-cu ildəkinə nisbətən 2,2%, o cümlədən bitkiçilik məhsulları üzrə 8,9% azalmış, heyvandarlıq məhsulları üzrə isə 6,1% artmışdır. Eyni zamanda qeyd edilməlidir ki, taxıl və kartof məhsulunun istisna olunduğu təqdirdə bitkiçiliyin qalan sahələri üzrə artım tempi 3,4%-dir. Bitkiçilik sahəsində ən yüksək artım pambıq və tütün istehsalında əldə olunmuşdur. Belə ki, xam pambığın yığımı 37,3 min ton olmaqla 2009-cu illə müqayisədə 17% artmışdır. Artımın əsas səbəbi əkin sahələrinin 47% qədər artması olmuşdur. Eyni səbəbdən tütün istehsalı 2009-cu ilə nisbətən 24,3% artaraq 3,2 min tona çatmışdır. Bununla yanaşı, ölkədə ötən il aqrar sahədə bir çox məhsul növləri üzrə hektardan orta məhsuldarlıq artmışdır. Kənd təsərrüfatının vacib sahəsi sayılan heyvandarlıqda da son bir ildə artım müşahidə edilir. Belə ki, 2010-cu ildə diri çəkidə 440 min ton ət, 1529,2 min ton süd, 1178,6 milyon ədəd yumurta, 15,6 min ton yun istehsal olunmuşdur. Ət istehsalı 7,1%, süd istehsalı 6,7%, yun istehsalı 2,4% artmışdır. Yalnız yumurta istehsalı bəzi quşçuluq fabriklərinin fəaliyyətlərinin dayanması və yaxud zəifləməsi hesabına 2,5% azalmışdır.

Tikinti. 2010-cu ildə bütün maliyyə mənbələrindən əsas kapitala 9715,2 milyon manat vəsait yönəldilmiş, onun 66,3% və ya 6443,6 milyon manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir. Əvvəlki illə müqayisədə əsas kapitala yönəldilmiş vəsait 21,2%, tikinti-quraşdırma işlərinə yönəldilən vəsait isə 19,8% çox olmuşdur. Dövlət mülkiyyətli müəssisə və təşkilatlar inşaat işlərinə 5829,4 milyon manat, qeyri-dövlət müəssisələri 3885,8 milyon manat vəsait sərf etmişlər.

## Ümumi daxili məhsul istehsalı

milyon manatla

| ÜDM göstəriciləri | 2010 il | 2009 il | 2010-cu il 2009-cu ilə nisbətən, faizlə |
|---|---|---|---|
| Ümumi Daxili Məhsul | 41 574,7 | 35 601,5 | 105,0 |
| Məhsulların istehsalı | 27 207,9 | 22 223,5 | 103,8 |
| o cümlədən: | | | |
| Sənaye | 21 852,5 | 17 489,7 | 102,1 |
| ondan: | | | |
| - mədənçıxarma sənayesi | 19 131,6 | 15 090,3 | 101,4 |
| - emal sənayesi | 2 255,9 | 1 970,0 | 106,8 |
| - elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat | 415,7 | 386,7 | 106,2 |
| - su təchizatı, çirkli suların və tullantıların təmizlənməsi | 49,3 | 42,7 | 98,1 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 2 221,1 | 2 179,5 | 97,8 |
| Tikinti | 3 134,3 | 2 554,3 | 120,3 |
| Xidmətlərin istehsalı | 11 399,8 | 10 568,0 | 107,2 |
| o cümlədən: | | | |
| Topdan və pərakəndə ticarət, avtomobillərin və motosikletlərin təmiri | 2 748,3 | 2 380,8 | 108,8 |
| Nəqliyyat və anbar təsərrüfatı | 2 493,2 | 2 431,4 | 104,3 |
| Yaşayışın təşkili və ictimai iaşə | 434,5 | 348,5 | 116,3 |
| İnformasiya və rabitə | 788,4 | 676,2 | 129,7 |
| Sosial və digər xidmətlər | 4 935,4 | 4 731,1 | 103,9 |
| Məhsula və idxala xalis vergilər | 2 967,0 | 2 810,0 | 106,0 |
| Deflyator | 111,3 | 81,2 | x |

## Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərdən istifadə

| Göstəricilər | 2010-cu ildə, milyon manat | Əvvəlki ilə nisbətən, faizlə | Ümumi həcmdə xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| C Ə M İ | 9 715,2 | 121,2 | 100,0 |
| o cümlədən: Müəssisə və təşkilatların vəsaitləri | 4 930,8 | 124,6 | 50,8 |
| Bank kreditləri | 623,4 | 144,0 | 6,4 |
| Büdcə vəsaitləri | 3 181,9 | 113,3 | 32,8 |
| Büdcədənkənar fondların vəsaitləri | 568,0 | 113,9 | 5,8 |
| Əhalinin şəxsi vəsaiti | 407,1 | 126,8 | 4,2 |
| Digər vəsaitlər | 4,0 | 4,5 d. | 0,0 |

Əsas kapitala yönəldilmiş vəsaitin 75,2% daxili, 24,8% isə xarici mənbələrdən yönəldilmiş vəsaitlər təşkil etmiş, daxili mənbələrdən yönəldilən vəsaitlərin 73,9% dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatların, 26,1% qeyri-dövlət mülkiyyətinə məxsus müəssisələrin payına düşür. Əsas kapitala yönəldilmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların vəsaitləri 4930,8 milyon manat (ümumi vəsaitin 50,8%), bank kreditləri 623,4 milyon manat (6,4%), büdcə vəsaitləri 3181,9 milyon manat (32,8%), büdcədənkənar fondların vəsaitləri 568 milyon manat (5,8%), əhalinin şəxsi vəsaitləri 407,1 milyon manat (4,2%) təşkil etmişdir.

Əhalinin gəlirləri. 2010-cu ildə ölkə əhalisinin gəlirləri əvvəlki illə müqayisədə 13,3% artaraq 25,6 milyard manata çatmış, onun adambaşına həcmi isə 2866.0 manat və ya ayda orta hesabla 238,8 manat təşkil etmişdir. Gəlirlərin 70% son istehlaka, 8,6% vergilər, sosial sığorta və könüllü üzvlük haqlarının ödənilməsinə sərf edilmiş, 19,8% isə əmanətlərin və kapitalın artırılmasına yönəldilmişdir. Vergilər, digər icbari ödəmələr və könüllü üzvlük haqları ödənildikdən sonra əhalinin sərəncamında 23,4 milyard manatlıq və ya əvvəlki ildəkindən 14,% çox vəsait qalmışdır.







# Təbərzin

XVII əsrin zərbə-doğrayıcı soyuq silahı.
Poladdandır. Bu təbərzin mərasimlərdə, müxtəlif tədbirlərdə istifadə olunub. İki tərəfi kəsicidir, üzərində ərəb əlifbası ilə yazılar, nəbati ornamentlər var.

# Azərbaycanın bank sektoru

Azərbaycan iqtisadiyyatında ötən il bütövlükdə qlobal böhranın təsirləri aradan qaldırılmışdır. Ölkə iqtisadiyyatının maliyyə dayanıqlığı daha da güclənmiş, valyuta ehtiyatlarının əhəmiyyətli artımı baş vermişdir. Belə ki, tədiyə balansının cari hesabında əhəmiyyətli, 10 mlrd. ABŞ dolları həcmində olan profisitlə bərabər, ölkənin strateji valyuta ehtiyatları $30 mlrd. çatmış və 3 illik mal və xidmət idxalına kifayət etmişdir. Mərkəzi Bankın həyata keçirdiyi maliyyə sabitliyi siyasəti bank sisteminin də maliyyə dayanıqlığının qorunmasına yönəldilmişdir. Nəticədə maliyyə sabitliyi qorunub saxlanmış, bank biznesində müsbət trendlər, milli valyutanın isə möhkəmlənməsi təmin edilmişdir.

Azərbaycan bank sistemi inkişaf dinamikasını qoruyub saxlamışdır, bankların maliyyə vasitəçiliyi funksiyası isə daha da dərinləşmişdir. Milli iqtisadiyyatın maliyyə xidmətlərinə tələbatının təmin edilməsini 2010-cu ildə bankların filial şəbəkəsinin genişləndirilməsi nümayiş etdirmişdir. Belə ki, il ərzində bankların yeni 32 filialı açılmış və beləliklə də bank filiallarının sayı 644-ə, yeni 15 bank şöbəsi açılmış və bank şöbələrinin sayı 120-yə çatmışdır. Nəticədə ölkə ərazisinin hər 1000 m2-ə 11,3 (ilin əvvəlində 10,9) və 100.000 nəfər yetkinlik yaşına çatmış əhaliyə isə 16,1 (ilin əvvəlində 15,8) bank struktur bölmələri düşür.

Bankların maliyyə vasitəçiliyinin bərpası və genişləndirilməsi ilə yanaşı bank sisteminin institusional inkişafı və sağlamlaşdırılması davam etmişdir. İl ərzində 1 yeni banka lisenziya verilmiş, 2 bankın lisenziyası isə ləğv edilmişdir. Nəticədə fəaliyyətdə olan bankların sayı 45 olmuşdur.

İl ərzində bank sisteminin məcmu aktivləri 1626 mln. manat və ya 13,9% artaraq 1 yanvar 2011-ci il tarixinə 13,3 mlrd. manata çatmışdır. Aktivlərin artımı əsasən kredit portfelinin artımı ilə (46%) əlaqədardır. Kreditləşmənin maksimal artımı 2010-cu ilin II rübündə müşahidə olunmuşdur. Nəticədə kreditlərin payı ümumi aktivlərdə təxminən 70% bərabər olub. 2009-cu illə müqayisədə bank kreditləri 741,3 mln. manat və ya 9% artaraq 8971,8 mln. manat səviyyəsinə çatmışdır. Banklar tərəfindən hüquqi şəxslərə verilmiş kreditlərin həcmi 3,3% artaraq 5,96 mlrd. manat təşkil etmişdir. Ev təsərrüfatlarına verilmiş kreditlərin həcmi isə 16,6% artmış və 2,53 mlrd. manat təşkil etmişdir. Nəticədə fiziki şəxslərə verilən kreditlərin payı bankların ümumi ayırdığı kreditlərdə 27-28% təşkil etmişdir.

2010-cu ildə bankların kapital adekvatlığı göstəriciləri Mərkəzi Bank tərəfindən müəyyən edilən minimal həddən yüksək olaraq, onların xarici şoklara qarşı dayanıqlı olduğunu göstərmişdir. Potensial itkiləri absorbsiya etmək üçün Azərbaycanda fəaliyyət göstərən bankların əksər hissəsi yetərli kapital buferinə malikdir. Bank sisteminin maliyyə dayanıqlılığı ilk növbədə məcmu kapitalın yüksəlməsi ilə artmışdır. Bu göstərici, il ərzində 7,9% artaraq 1,9 mlrd. manat təşkil etmişdir. Kapitalın dayanıqlığı əsasən səhmdarların vəsaitləri hesabına təmin olunmuşdur. Belə ki, nizamnamə kapitalı ilin əvvəli ilə müqayisədə 18,8% (214,8 mln. manat) artmışdır. Bununla yanaşı xarici investorların da bank sisteminin kapitalında iştirakı artmışdır.
2010-cu il ərzində bu növ səhmdarların bankların nizamnamə kapitalına investisiyaları 19,8% (40,5 mln.man.) artaraq 01.01.2011-ci il tarixinə 245 mln. manat (bank sektorunun məcmu nizamnamə kapitalının 17,8%-i) təşkil etmişdir.

Həmçinin nəzərə alımalıdır ki, Mərkəzi Bankın kapitallaşma səviyyəsinə və kapitalın strukturuna dair tələbləri sərtləşdirilmişdir (leverec əmsalı tətbiq olunmuşdur). Kapitalın keyfiyyəti yaxşılaşmışdır. I dərəcəli kapitalın məcmu kapitalda payı 80% olmuşdur, halbuki əvvəlki illərdə bu göstərici 73% olmuşdur. Kapitalın strukturunda bölüşdürülməmiş mənfəətin payı 7,9%-dən 8,9%-ə artmışdır. Sistem üzrə kapital adekvatlığı göstəricisinin faktiki səviyyəsi banklarda əhəmiyyətli kapital ehtiyatı buferinin yaradılmasını göstərir. Bank sisteminin məcmu kapital adekvatlığı yüksək səviyyədə qalmış (16,9%) və Mərkəzi Bankın müəyyən etdiyi minimal normanı (12%) xeyli üstələmişdir.

2010-cu ildə bankların əldə etdikləri mənfəət (vergi ödənilənədək) 140,1 mln. manat təşkil etmişdir. Vergi ödənildikdən sonra isə xalis mənfəət 120,3 mln. manata bərabər olmuşdur. Xalis mənfəətin orta aktivlərə nisbəti (ROA) 2010-cu ildə 1%, xalis mənfəətin orta kapitala nisbəti (ROE) 7,4% təşkil etmişdir.



Kreditlər üzrə faiz dərəcələrinin azalması və ümumiyyətlə gəlir gətirən aktivlərin həcminin artması nəticəsində bankların faiz gəlirləri ötən illə müqayisədə 2% artmış və 1055,3 mln. manata çatmışdır. Digər faiz gəliri gətirən əməliyyatlardan (banklararası tələblər, qiymətli kağızlar və maliyyə lizinqi) məcmu gəlir 3,7% artmış və orta aktivlərə nisbətdə 0,9% təşkil etmişdir.

Bununla yanaşı ötən ildə banklar alternativ gəlir mənbələrini, qeyri-faiz gəlirlərini artırıblar. Bankların qeyri-faiz gəlirləri ötən illə müqayisədə 5% artmış və 271,6 mln. manat təşkil etmişdir. İqtisadi aktivliyin canlanması fonunda qeyri-faiz gəlirlərinin artımı müştərilərin hesablarının aparılması və onlara xidmətlərin göstərilməsinə görə komissiya haqlarının artması ilə izah olunur. İl ərzində qazanılmış komissiya 19% artmış və 174,7 mln. manat səviyyəsində olmuşdur. Eyni zamanda il ərzində bankların xarici valyuta ilə aparılan əməliyyatlarından xalis gəlirlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 3% azalaraq 83,8 mln. manat təşkil etmişdir. Xarici valyuta ilə aparılan əməliyyatlardan əldə olunmuş gəlirlərin bank sektorunun orta aktivlərinə nisbəti 0,9%-dən 0,7%-ə enmişdir. Bankların xarici valyuta ilə aparılan əməliyyatlarından xalis gəlirlərin azalması banklar tərəfindən açıq valyuta mövqeyinin tənzimlənməsi ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, Azərbaycan banklarının ümumi gəlirləri 1326,9 mln. manat təşkil etmiş və bu 2009-cu ilin göstəricisindən 33,5 mln. manat və ya 2,6% çoxdur. Ümumlikdə bankların məcmu xərcləri (faiz və qeyri-faiz) ötən ildə 124 mln. manat və ya 14,1% artaraq 1002,9 mln. manata çatıb. Faiz xərcləri əvvəlki il ilə müqayisədə 18,4% artmış və 551,6 mln. manata bərabər olmuşlar. Bu əsasən fiziki şəxslərin əmanətlərinin həcminin artması ilə əlaqədardır. Cəmi faiz xərcləri artımının təxminən 90%-i müddətli depozitlər üzrə ödənilmiş faizlərin payına düşür. Faiz xərclərinin mütləq ifadədə artmasına baxmayaraq onların orta aktivlərə nisbəti il ərzində 4,6%-dən 4,5%-ə enmişdir.

Bank gəlirlərinin strukturunda faiz gəlirləri (79,5%), xərclərdə isə faiz ödənişləri (55%) üstünlük təşkil edir. Bankların qeyri-faiz xərcləri 2010-cu ildə 9,2% artmış və 451,3 mln. manat təşkil etmişdir. Bu növ xərclərin artması bankların institusional genişlənməsi, o cümlədən yeni filial və şöbələrin açılması ilə əlaqədardır. Belə ki, il ərzində bank sistemində çalışan əməkdaşların sayı 11% artmış və 15.000 nəfərdən çox olmuşdur. Ötən illə müqayisədə qeyri-faiz xərclərin həcminin mütləq ifadədə artmasına baxmayaraq onların bank sektorunun orta aktivlərinə nisbəti 4,1%-dən 3,7%-ə enmişdir. Qeyri-faiz xərclərinin nisbətən aşağı düşməsi bankların əməliyyat xərclərinin optimallaşdırılmasından irəli gəlir.

Uzunmüddətli kreditlərin artım tempi (9,3%) ümumi kreditlərin artım tempinə demək olar ki, uyğundur (9%) və 1 yanvar 2011-ci il tarixinə 6,55 mlrd. manat təşkil etmişdir. 2010-cu ildə kredit portfelinin strukturunda uzunmüddətli kreditlərin xüsusi çəkisi 73-74% arasında dəyişmişdir.

Kreditlərin valyuta strukturu ilə yanaşı, sahə strukturunda da dəyişikliklər baş vermişdir. Kreditlər üzrə ən yüksək artım tempi qeyri-neft sənaye və istehsalı (+27,1%), ticarət və xidmət sahələrində (+20%), kənd təsərrüfatı və emal (+11,9%) və inşaat və əmlak sektorlarına (+14,6%) verilən kreditlərdə müşahidə olunmuşdur. Əhalinin kreditləşməsi bank xidmətlərinin mühüm hissəsi olaraq qalır. İqtisadi artım, müştəri riskləri ilə bağlı qeyri-müəyyənliyin azalması nəticəsində banklar II rübdən etibarən pərakəndə kreditləşməni canlandırmışlar. Fiziki şəxslərə verilən kreditlərin həcminin artımı ipoteka (+151 mln.manat) və istehlak (+175 mln.manat) kreditləri hesabına baş vermişdir. 2011-ci ilin 1 yanvar tarixinə ev təsərrüfatlarına verilmiş kreditlərdə istehlak məqsədləri ilə verilmiş kreditlərin xüsusi çəkisi 71%, ipoteka bağlı kreditlər isə 15% təşkil etmişdir. Ev təsərrüfatlarına verilmiş kreditlərin strukturunda istehlak kreditlərinin payı azalmış, daşınmaz əmlakla bağlı kreditlərin payı isə artmışdır.

Sahibkarlıq fəaliyyəti ilə bağlı kreditlərin və kredit kartları üzrə borc qalığının payı dəyişməmişdir. Fiziki şəxslərə uzunmüddətli kreditlər il ərzində 18,4% artmış və 1 yanvar 2011-ci il tarixinə 1,9 mlrd. manat (01.01.10 - 1,6 mlrd. manat) təşkil etmişdir. İpoteka kreditlərinin həcminin artması bankların fiziki şəxslərə verilmiş kreditlərdə uzunmüddətli kreditlərin payının artmasını şərtləndirmişdir. 2011-ci ilin 1 yanvar tarixinə uzunmüddətli kreditlərin fiziki şəxslərə kredit portfelində xüsusi çəkisi ilin əvvəli ilə müqayisədə 68,3%-dən 69,7%-ə qədər artmışdır.



# Azərbaycanın bank sektoru

Kredit portfelinin keyfiyyəti məqbul səviyyədə qalmışdır. Belə ki, qeyri-standart kreditlər portfelin 8%-ni təşkil etmişdir. Qeyri-işlək kreditlərin portfeldə payı isə 4,7% təşkil etmişdir. Kreditlər üzrə yaradılmış ehtiyatların həcmi məcmu kredit portfelinin 7,9% çatdırılmışdır.

Hesabat ili ərzində bankların resurs bazasının əsas mənbəyi hüquqi və fiziki şəxslərdən cəlb olunan depozitlər olmuşdur. Bank aktivlərinin likvidlik səviyyəsi kreditorlar və borcalanlar qarşısında öhdəliklərin vaxtında yerinə yetirilməsi üçün kifayət olmuşdur. Bankların ümumi depozit bazası  794,6 mln. manat artaraq (+17,1%) 5,45 mlrd. manat təşkil etmişdir. İl ərzində ortalama olaraq cəmi öhdəliklərin strukturunda depozit və əmanətlərin payı 46,6%, cəmi resurs bazasında payı isə 38,6% təşkil etmişdir. Hüquqi şəxslərin depozitləri 99,7 mln. manat həcmində artaraq 2,4 mlrd. manat təşkil etmişdir. Hüquqi şəxslərin depozitlərinin dinamikasında mövsümi volatillik müşahidə olunmuşdur və ümumi bank öhdəliklərinin orta aylıq 20,6% təşkil etmişdir.

Əmanətlər üzrə faiz dərəcələrinin azaldılmasının təşviqi siyasəti davam etdirilmişdir. Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası, Mərkəzi Bankla razılaşdırılmaqla, 2010-cu il iyun ayının 1-dən etibarən qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddini 15%-dən 12%-ə endirmişdir. Bu qərar əmanətlərin faiz dərəcələrinə azaldıcı təsir göstərərək kreditlər üzrə faiz dərəcələrinin də enməsi üçün şərait yaratmışdır.

İl ərzində əhalinin əmanətləri 29,8% artaraq 3,030 mlrd. manata çatmışdır. Cəlb olunmuş resurslarda əhalinin əmanətlərinin payının artması müşahidə olunur ki, bu da bankların maliyyələşdirmə resursların diferensiyasiyası siyasətini əks etdirir.

Belə ki, banklar maliyyə çevikliyini artırmaq, likvidlik riskini isə azaltmaqda daha çox daxili resurslara üstünlük verirlər. 2011-ci ilin 1 yanvar tarixinə əhalinin əmanətlərinin bank öhdəliklərində payı 27,2% təşkil etmişdir (2010-cu ilin 1 yanvar tarixinə 24,2%). Əhalinin əmanətlərinin orta aylıq artımı 2,2% olmuşdur. Lakin depozitlərin böyük artımı ilin 2-ci yarısında baş vermişdir.

Sığortalanan əmanətlər üzrə maksimal faiz dərəcəsinin azalması fonunda əmanətlərin artması bank sisteminə yüksək inamın olmasını bir daha təsdiq edir. Depozit bazasının mütləq artması ilə yanaşı onun keyfiyyətində də müsbət dəyişikliklər baş vermişdir. Belə ki, müddətli depozitlər tələbli depozitlərlə müqayisədə daha sürətlə artmışdır. Əhalinin tələbli əmanətləri 10,4% artdığı halda, müddətli əmanətlər 35,3% artmışdır.
Əmanət bazasının ümumi sabitliyinin artması ilə yanaşı onun dürasiyası da artmışdır. Belə ki, ümumi əmanətlərin 34,6%-i ödəniş müddəti 1 ildən artıq olan əmanətlər təşkil edir (01.01.2010-cu il tarixinə 32,3%). Bununla yanaşı fiziki şəxslərin milli valyutada əmanətləri il ərzində 46% artmış, ümumi əmanatlərdə payı 46,5% (01.01.2010-41,4%) təşkil etmişdir.

Mərkəzi Bankın bank sisteminə tələbləri il ərzində demək olar ki, sabit qalmış və ilin sonuna 1,54 mlrd. manat olmuşdur. Bu növ resursların bank öhdəliklərində payı il ərzində 15,2%-dən 13,9%-ə qədər azalmışdır. Banklararası öhdəliklərin artması müşahidə olunmuşdur. Banklararası öhdəliklərin həcmi il ərzində 417,4 mln. manat (24,5%) artmış və 01.01.2011-ci il tarixinə 2,1 mlrd. manata çatmışdır. Bu növ resursların orta aktivlərə nisbəti 15-16% təşkil etmişdir. Qeyri-rezidentlərdən cəlb olunmuş vəsaitlər il ərzində 111,4 mln. manata (+6,4%) çatmışdır. Bank sisteminin xarici borcunun həcmi 1,85 mlrd. manat, ümumi öhdəliklərdə payı isə 16,6% təşkil etmişdir.




Bankların məcmu depozit portfelinin dinamikası

Kredit aktivliyinin canlanmasına baxmayaraq, bankların likvidlik səviyyəsi yüksək olaraq qalmışdır. Likvid aktivlərin ümumi aktivlərə nisbəti bank sistemində likvidlik riskinin adekvat idarə olunmasını təsdiq edir. Müddətli depozitlərin artım tempi (+14%) kreditlərin artım tempini (+9%) üstələmişdir. 2010-cu il ərzində likvid aktivlər ümumi aktivlərin təxminən 1/5 hissəsini təşkil etmişdir. 2010-cu il ərzində likvid aktivlərin strukturunda əhəmiyyətli dəyişikliklər olmamış, ilin sonundakı dəyişikliklər isə mövsümü amillər ilə bağlıdır. Belə ki, 01.01.2011-ci il tarixinə müxbir hesablarda olan vəsaitlərin payı 65%-ə çatmış (orta illik 56%), nağd vəsaitlərin payı isə 21%-ə (orta illik 30%) düşmüşdür, qiymətli kağızların payı isə 14% səviyyəsində sabit qalmışdır. Likvidliyin aktiv və öhdəliklər üzrə müddət təhlili (QƏP təhlil) də likvidliyin məqbul səviyyədə (01.01.11 tarixinə QƏP-in aktivlərə nisbəti - 0,2%/ +7,6% çərçivəsində olmuş) olmasını əks etdirir.

2010-cu il ərzində Milli Ödəniş Sisteminin dövriyyəsi tarixi maksimum həddinə çatmışdır. Ödəniş sistemində ümumi həcmi 84,83 mlrd. manat olmaqla, 10,15 mln. ədəd əməliyyat aparılmışdır. 2009-cu illə müqayisədə ödəniş əməliyyatlarının sayı 52% (3,5 mln. ədəd), ümumi həcmi isə 8% (6,5 mlrd. manat) artmışdır. 2010-cu ildə gün ərzində orta hesabla 38,4 min. ədəd olmaqla ümumi həcmi isə 321,3 mln. manat təşkil edən ödənişlər həyata keçirilmişdir (ötən il orta hesabla müvafiq olaraq 25,4 min. ədəd və 296,6 mln. manat).

Banklararası Milli Hesablaşmalar sistemi – AZİPS milli ödəniş sistemində mühüm yer tutur və maliyyə sektorunda onun təyinatı böyük həcmdə və prioritet ödənişlərin həyata keçirilməsidir.

2010-cu il ərzində nağdsız ödənişlərin 92%-i bu sistem vasitəsilə həyata keçirilmişdir. AZİPS sistemində ümumi həcmi 78,4 mlrd. manat olmaqla 362 min ədəd ödəniş sənədi emal olunmuşdur ki, bu da 2009-cu illə müqayisədə həcm etibarilə 7,6% (5,6 mlrd. manat) çoxdur və say etibarilə 7,9% (31 min ədəd) azdır. Hər bir ödəniş sənədinin məbləği orta hesabla 216,6 min. manat təşkil etmişdir.

Xırda Ödənişlər üzrə Hesablaşma Kliring Sistemində (XÖHKS) bütün nağdsız ödənişlərin böyük əksəriyyəti say baxımından 96,4%, həcm baxımından 7,6% (6,4 mlrd. manat həcmində 9,8 mln. ədəd sənəd) kiçik həcmli nağdsız hesablaşma şəklində emal olunmuşdur ki, bu da sistemin əsasən pərakəndə xırda ödənişlərin həyata keçirilməsində təyinatını göstərir. 2009-cu illə müqayisədə 2010-cu il ərzində ödənişlərin həcmi 17,5%, sayı isə 55,3% çoxdur. Sistemdə hər bir ödəniş sənədinin məbləği orta hesabla 655 manat təşkil etmişdir.

2010-cu ildə iqtisadi artım və maliyyə böhranın nəticələrinin aradan qaldırılması ödəniş sistemlərinin inkişafına müsbət təsir etmişdir. ATM və POSterminallar vasitəsilə ümumi həcmi 5,7 mlrd. manat olan 44,7 mln. ədəd əməliyyat aparılmışdır.

Ölkə ərazisində bank filiallarında, pərakəndə ticarət və xidmət müəssisələrində quraşdırılmış bankomatların sayı ötən illə müqayisədə 12% (198 ədəd) artaraq 1892 ədəd təşkil etmişdir ki, onlardan da 1053 ədədi Bakı şəhərində, 839 ədədi regionlarda quraşdırılmışdır.

2010-cu il ərzində bank kartlarının sayı 257 min ədəd artaraq 4,23 mln. ədəd təşkil etmişdir və hər min nəfər yetkinlik yaşına çatmış əhaliyə orta hesabla 694 ödəniş kartı düşür.

İnternet-banking vasitəsilə 75,47 mln. manat məbləğində 29,98 min. əməliyyat həyata keçirilmişdir.



Bankların kredit portfeli (sektorlar üzrə)





# Barıtqabı

XVIII əsrin sonu.
Qızıldandır, üzəri kəsmə, nəbati naxışlıdır.

# Səhmdarlar və kapital

2010-cu il ərzində "Unibank" ASC-nin səhmdarları Bankın nizamnamə kapitalını 44,919 milyon AZN-ə çatdırmışlar.

İlk növbədə Bankın kapitallaşdırılma səviyyəsi hər birinin nominal dəyəri 2 AZN olan 5 796 000 ədəd sadə adsız sənədsiz səhmin emissiyası yolu ilə artırılıb. Bu səhm buraxılışı nəticəsində nizamnamə kapitalı 39% artaraq 41,592 milyon manat təşkil etmişdir. Səhm emissiyasının nəticələri avqust ayının 31-də Qiymətli kağızlar üzrə Dövlət Komitəsində rəsmi qeydiyyatdan keçirilmişdir. Buraxılış, 1993-cü ilin 21 iyulundan başlayaraq, Bankın bütün fəaliyyəti tarixində 16-cı və 2009-cu ilin yazında başa çatmış və ümumi həcmi 15 milyon AZN olan səhm buraxılışından sonra ən iri miqyaslı emissiya sayıla bilər.

Eyni zamanda, ilk dəfə olaraq ötən il "Unibank" öz kapitalını səhm nominalının yüksəldilməsi hesabına artırmağa nail olub. Belə ki, səhmlərin hər birinin dəyəri 8% yüksəlib - 2 AZN-dən 2,16 AZN-dək. Bu haqda qərar Bakıda sentyabrın 24-də növbədənkənar yığıncaq keçirən Bankın səhmdarları tərəfindən qəbul olunub. Nəticədə, "Unibank" ASC-nin kapitalı 3,327 milyon manat artaraq ölkənin bank sektorunda ən yaxşı göstəricilərdən birinə çatdırılıb. Bankın nizamnamə kapitalının onun səhmlərinin nominal dəyərinin yüksəldilməsi vasitəsilə artırılması "Bankların, sığorta və təkrar sığorta şirkətlərinin kapitallaşdırılmasının artırılmasının stimullaşdırılması haqqında" qanunun çərçivəsində yerinə yetirilir. Xatıladaq ki, bu qanun 2009-cu ilin yanvar ayının 1-də qüvvəyə minmişdir və mənfəətin nizamnamə kapitalının artırılmasına yönəldilən hissəsinin 2012-ci ilədək vergidən azad edilməsini nəzərdə tutur.

Nizamnamə kapitalının artırılması bir daha Bankın sabit inkişafda olduğunu təsdiqləyir və maliyyə əməliyyatlarının miqyaslarının, ayrı-ayrı borcalanların kreditləşdirilməsinin həcminin artırılması, eləcə də sərfəli şərtlərlə əlavə fondlaşdırılma mənbələrinin cəlb edilməsi hesabına genişləndirilməsi üçün imkanlar açır.
Səhm buraxılışı və səhm nominalının yüksəldilməsi "Unibank" ASC-nin səhmdar kapitalının strukturunu dəyişməyib:

Bank səhmlərinin reyestr saxlayacısı Milli Depozit Mərkəzidir. Səhmlərin depozitar uçotu da Milli Depozit Mərkəzi tərəfindən aparılır.

## SƏHMDARLAR



## BANK SƏHMLƏRİNİN EMİSSİYASI:

| Dövlət qeydiyyatının tarixi | Dövlət qeydiyyatı orqanı | Dövlət qeydiyyat nömrəsi | Emissiya olunan səhmələrin sayı |
|---|---|---|---|
| 21.07.1993 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 38 | 500 |
| 28.04.1995 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 38/2 | 1.500 |
| 11.05.1995 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 38/3 | 18.000 |
| 20.06.1996 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 38/4 | 80.000 |
| 28.12.1996 | Azərbaycan Respublikası Milli Bankı | 1050073B | 320.000 |
| 27.03.1998 | Azərbaycan Respublikası Milli Bankı | 1060073B | 180.000 |
| 29.09.1998 | Azərbaycan Respublikası Milli Bankı | 1070073B | 200.000 |
| 05.05.1999 | Azərbaycan Respublikası Milli Bankı | 1080073B | 117.500 |
| 29.06.2001 | Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 1010202B | 200.000 |
| 10.06.2002 | Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 1020202B | 100.000 |
| 03.10.2002 | Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 1030202B | 767.132 |
| 13.11.2003 | Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 1040202B | 500.000 |
| 18.05.2005 | Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | AZ100100202P | 800.000 |
| 17.07.2007 | Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | AZ100100202 | 7.500.000 |
| 05.06.2009 | Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | AZ100100202 | 15 000 000 |
| 12.11.2010 | Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | AZ100200202 | 20 796 000 |
| CƏMİ | | | 44 919 360 |





# Top

XVIII əsrin sonuna aid olan odlu silahdır.
Poladdandır.

# Yeni strategiya

## Məhsul yönümlü strategiyadan, müştəri yönümlü strategiyaya

2010-cu ilin oktyabr ayında «Unibank» ASC-nin Müşahidə Şurası Bankın 2011-2013-cü illəri əhatə edən yeni strategiyasını təsdiq etdi. Qəbul olunan strateji planda bank biznesində baş verən müasir tendensiyalar təhlil olunub və milli iqtisadiyyatının hazırki və yaxın gələcəkdəki inkişaf mərhələsi üçün yeni hədəflər qoyulub.

Cəmi bir neçə il ərzində kiçik bir bankdan ölkə bank sektorunun hərəkətverici qüvvələrindən birinə qədər yüksəlmiş «Unibank» artıq böyük şirkət olduğunu tam mənada dərk edir. Səhmdarlar arasında güclü Qərb investorları olan və nüfulzu beynəlxalq mükafatları qazanan bir Bank kimi, yaxın illər üçün əsas vəzifəmiz Azərbaycanda müştəriyə yönümlü ən yaxşı bank nüfuzunu əldə etmək və ölkəmizin fəxr etdiyi şirkətlərdən birinə çevrilməkdir.

Bu missiyanı yerinə yetirmək üçün bizə yeni baxışlar və yanaşma gərəkdir. Ən əsası isə komandamızın hər bir üzvü müştərilərimizə maliyyə nailiyyəti qazanmaqda yardımçı olmaqdır. Məhz buna görə bir nömrəli məqsədimiz – müşətrilərin tələbatlarını ödəyəcək və onlara maliyyə baxımından müvəffəqiyyətli olmaqda kömək edə biləcək məhsul və qərarların təklif edilməsidir. Demək olar ki, artıq strategiyamız məhsul yönümlü yox, müştəri yönümlüdür. Elə bu səbəbdən də müştərilərimizə elan etmək istəyirik ki, yeni strategiyamıza əsasən əməkdaşlarımız depozit və ya hansısa kredit alətini deyil, onlara maliyyə uğuru qazandıracaq xidmətlər və məsləhətlər təklif edəcəklər.

Bank sektorunda ən keyfiyyətli və istənilən xidmətlərdən bəhs edərkən, yaxşı anlayırıq ki, bütün əməkdaşlarımız – Bankın rəhbərləri və menecerlərindən tutmuş "Call-center"in əməliyyatçısına qədər bu strategiyanın həyata keçirilməsi üçün onlardan asılı olan hər bir şeyi edəcəklər.

## 2011-ci il üçün planlar

Cari ildə də «Unibank» 2014-cü ilə qədər İnkişaf Strategiyasının planlı həyata keçirilməsi, biznesin uzunmüddətli və sabit artımının təmin olunması hədəfini qarşıya məqsəd qoyub.

Maliyyə sahəsində Bankın əsas məqsədi – kapitalın rentabelliliyinin və səhmdarlar üçün gəlirliliyinin artırılmasıdır ki, bu da öz növbəsində kredit portfelinin keyfiyyətinin artırılması, habelə biznesin səmərəliliyinin davamlı artımı üzrə iş aparılmasını tələb edəcək.

2011-ci il üçün müştərilərlə işin prioritet məqsədi – onların Bankda aldıqları xidmət şərtlərindən məmnunluğunun artırılmasıdır. Bu məsələdə əsas diqqət müştərilərə xidmət bölmələrində növbələrin aradan qaldırılması, habelə korporativ müştərilər üçün müştəri menecerləri institutunun inkişaf etdirilməsinə yönələcək. Qarşıda duran vəzifələrdən biri də maliyyə bazarının əsas seqmentlərində mövqelərin möhkəmləndirilməsi hesabına, Bankın ümumilikdə bank sisteminin aktivlərindəki payının artırılması, habelə pərakəndə bazarın əsas seqmentləri üçün brendin möhkəmləndirilməsidir.

Proses və texnologiyaların təkmilləşdirilməsi istiqamətində 2011-ci ildə Bank aşağıdakıları planlaşdırır:

- Müştəriyə istiqamətlənmiş xidmət sisteminə keçidin başa çatdırılması;
- Korporativ müştərilər üçün yeni kredit prosesinin tam tətbiqi və bununla da kreditləşmə sisteminin bazarda ən yaxşılar səviyyəsinə qaldırılması;

- Əməliyyat funksiyalarının konsolidasiyası yolu ilə miqyasın artımı üstünlüyünün reallaşdırılması.

Bankın uğuru bir çox hallarda burada çalışan insanlardan asılıdır. Məhz buna görə, 2011-ci ildə kadrlarla işin prioritet istiqamətləri - maddi və qeyri–maddi stimullaşdırma yolu ilə loyal və yüksək motivasiyaya malik komandanın formalaşdırılması, ixtisas artımı, karyeranın idarə olunması sisteminin təkmilləşdirilməsidir.


Səhmdarların ümumi yığıncağı
Müşahidə Şurasının sədri
İdarə Heyətinin sədri
İdarə Heyəti sədrinin 1-ci müavini
Audit komitəsi
Daxili audit
Müşahidə Şurası sədrinin müşaviri
Hüquq
Risk menecment komitəsi
Kredit komitəsi
ALCO komitəsi
İT komitəsi
Riteyl xidmətləri üzrə müdir
Satışın təşkili və keyfiyyətin idarə olunması
Pərakəndə biznesin inkişafı
VİP pərakəndə müştərilərə xidmət
İT
Plastik kartlar
Korporativ bank xidmətləri üzrə müdir
Korporativ bank xidmətləri
Korporativ biznesin inkişafı
İnsan resursları
Bank texnologiyaları və innovasiya
Risk-menecment müdiri
Risklərin idarə olunması
Kredit inzibatçılığı
Təhlükəsizlik
İşlər idarəsi
Str. planlaşdırma, biznesin inkişafı və marketing
PR və reklam
Beynəlxalq əlaqələr
Metodologiya
AML
Biznesin İnzibat. və dəstəklənməsi müdiri
İnzibati işlər
Qeyri işlək aktivlərin idarə olunması
Qiymətləndirmə və nəzarət
Xəzinədarlığa nəzarət
Maliyyə müdiri
Maliyyə-mühasibatlıq, əməliy.nəzarət, statistika
Planlaş. və büdcə
Xəzinədarlıq
Əməliyyat
Nağd vəsait. dövriyyəsi





# Qılınc-şaşka

VII əsrin soyuq silahıdır.
Təkrarolunmaz bədii tərtibatlı ilə seçilir, qının üzərində nəbati və həndəsi naxışlar var.

# Məhsullar və xidmətlər

## PƏRAKƏNDƏ BİZNES

2010-cu ildə «Unibank»ın pərakəndə biznesinin inkişafındakı əsas prioriteti əhaliyə ayrı-ayrı bank xidmətlərinin təklif olunmasından müştərilərlə kompleks qarşılıqlı fəaliyyət modelinin formalaşmasına keçid olub. Ayrı-ayrı müştərilərlə işdə Bankın əsas səyləri məhz kreditləşmə üzərində cəmlənib. Bank yeni kredit məhsulları xəttinin işlənib hazırlanması və əvvəlkilərin optimallaşdırılması vəzifələrini qarşıya qoymuşdur. Beləliklə, kreditlərin əksəriyyətinin verilməsi prosedurası əhəmiyyətli dərəcədə sadələşdirilib, onların sənədləşdirilməsi, verilməsi və müşayiət olunması prosesləri optimallaşdırılıb ki, bunda da elektron sənəd mübadiləsinin tətbiqinin rolu böyük olub. Bu, Banka il ərzində iki dəfə həm kreditlər üzrə faiz dərəcələrini, həm də bir sıra kreditləşmə əməliyyatları üzrə komisiya haqlarını aşağı salmaq imkanı verib.




Pərakəndə kreditləşmə bazarının tədricən bərpası və Bankın qiymət siyasəti fonunda müştərilərə verilən kreditlərin həcmi il ərzində artırdı və may ayından etibarən portfelin artım templəri sabit sürətdə kreditlər üzrə ödənişlər həcmlərini üstələyirdi. 2010-cu ildə fiziki şəxslər tərəfindən cəlb olunan kreditlərin məcmu həcmi 79 milyon manata yaxın olub ki, bu da ötən ilin göstəricisindən dəfələrlə artıqdır. Kreditlərin ən böyük hissəsi – 44 milyon AZN – müştərilərə 2010-cu ilin avqust-dekabr aylarında, «AL Kredit» məhsulu tətbiq olunarkən və «AL Kart» layihəsi üzrə yeni il qabağı faiz dərəcələrinin aşağı salınması zamanı verilib. İlin nəticələrinə görə, fiziki şəxslərin kredit portfeli 10% artaraq 148,5 milyon manata çatdırılıb. Portfelin artımı əsasən istehlak kreditləri, avtokreditlər, mikrokreditləşdirmə və ipoteka hesabına baş verib.

## MƏHSUL XƏTTİNİN İNKİŞAFI

Bank tərəfindən 2010-cu ildə prinsipial olaraq yeni məhsul xətti işlənib hazırlandı və 2011-ci ilin əvvəlində bazara çıxarıldı. Hazırda hər bir borcalan müştəri seqmenti üçün Bank, onların loyallığından, əmək haqqı layihələrində iştirakından, sahibkarlıq fəaliyyətində statusundan, orta müddətli gəlirlərdən asılı olaraq müvafiq faiz dərəcələri təklif edə bilir. Borcalanın yaxşı kredit tarixçəsinə malik olduğu təqdirdə faiz dərəcəsinə azaldıcı diskont tətbiq olunur.

Kredit məhsulları xəttində Bank tərəfindən şəxsi istehlak məqsədləri üçün iki unifikasiya edilmiş kredit məhsullarının xətti – təminatsız istehlak kreditləri və fiziki şəxslərin zəmanəti ilə istehlak krediti tətbiq olunur. Mənzil kreditləri sahəsində Bank Azərbaycan İpoteka Fondu tərəfindən yenidən maliyyələşdirilən ipoteka kreditləri təklif edir. 2010-cu ildə Bank təkcə yeni kredit məhsulları konseptləri yox, həm də bir sıra əvvəlki kredit proqramları üzrə təklifləri xeyli yaxşılaşdırıb. Avtokreditlər üzrə ilkin ödənişin həcmi aşağı salınıb, istehlak kreditinin və hər bir nəfər borcalana düşən borcun maksimum məbləği artırılıb.
Kredit prosesinin optimallaşdırılması üzrə tədbirlər çərçivəsində Bank kredit ərizələrinin mərkəzləşdirilmiş baxılması sistemi üzrə texnologiyaları müəyyən edib. Bu texnologiya kredit üzrə qərar qəbulu müddətini 2 iş gününə qədər azaltmağa və kredit risklərini minimuma endirməyə imkan verib. Həm də ən uzaq xidmət bölmələrində də kredit Bakıda olduğu şərtlər əsasında və eyni sürətlə verilir. Nəticədə Bank hər gün kreditlər üzrə yüzlərlə qərar qəbul edə bilir. Ümumilikdə isə 2010-cu il ərzində fərdi müştərilərə 13 500 kredit ayrılıb. Bu zaman 2010-cu ilin dekabr ayının göstəricisi yanvar ayının göstəricisindən 2,8 dəfə artıq olub.

2010-cu ildə digər, əvvəllər sınaqdan keçən pərakəndə kredit texnologiyalarına da inkişaf etdirilib. Bu cür məhsullardan biri plastik kartlar vasitəsi ilə istehlak kreditləri olub. Bundan əlavə, 2010-cu ildə Bank borcalanın maliyyə vəziyyətinin təsdiqini sadələşdirib, kreditin verilməsi zamanı çıxarılan müsbət cavabların müddətlərini uzadıb.

## KREDİT MƏHSULLARI

«Unibank» avtokreditləşmə sahəsində kredit məhsullarının şərtlərində dəyişiklik apararaq, onları bazarın tələblərinə, istehlakçıların arzu və istəklərinə uyğun olan bir formaya salmışdır. Bank bu sahədə çalışan 20-dən avtodiler şirkətləri ilə danışıqlar keçirmişdir. Nəticədə «KİA Motors», «Hyundai Auto Azerbaijan», «Performance Center», «Uz Daewoo Baku Avto» MMC ilə aktiv kreditləşdirmə tam bərpa olundu, «Xəzər-Lada» ASC-nin 4 yeni tərəfdaşı «Unibank»ın avtokreditləşdirmə proqramlarına qoşuldu. Eyni zamanda, rəsmi diler statusu olmayan və buna baxmayaraq müxtəlif minik avtomaşınların

satışı ilə məşğul olan şirkətlər üçün vahid proqram hazırlandı. Bu zaman təkrar bazar üçün yürüşlü avtomobillərin markasından asılı olaraq çeşidli kredit proqramları şərtləri müəyyənləşdirildi və müştərilərin maraqlarına tam cavab verən, misli görülməmiş kreditləşdirmə mexanizmləri bazara çıxarıldı.

İl ərzində "Performance Center"lə iki dəfə və Bank tarıxında ilk dəfə olaraq fasiləsiz 72 saat ərzində kreditləşdirmə aksiyası keçirildi. Yeni il ərəfəsində isə «KİA Motors» və «Hyundai Auto Azerbaijan» güzəştli satış kampaniyaları təşkil olundu. Bütün aksiyalar effektiv olmuşdur və birbaşa satışların dinamikasına müsbət təsir etmişdir.

Yeni il bayramı münasibəti ilə 2010-cu ilin noyabr ayında Bankda istehlak kreditlərin cəlb olunmasında marağlı olan müştərilər üçün xüsusi aksiyaya start verilmişdir. Bu zaman kredit kartı («AL Kart») və ya nağd kredit üçün («AL Kredit») müştərilərə güzəştli faiz dərəcələri təklif olunub. Aksiya nəticəsində «Al Kart» üzrə satışlar kifayyət qədər artıb, hesabat ilinin 3-cü rübündə yeni məhsul kimi bazara təqdim olunan «AL Kredit» isə yeni və daha sadə nağd kredit aləti kimi tanınıb. Kredit alətləri sırasına 2010-cu ildə məişət texnikası kreditləşməsi məhsulları əlavə olundu. Bu növ kreditlər müştərilərə ilk əvvəl «AZEl» şirkətinin mağazalar şəbəkəsində təlkif olunub. İstehlak kreditləri üzrə yiğimların optimallaşdırılması üçün xüsusi «Cash in» aparatlarının yerləşdirlməsi üzrə texniki tapşırıq hazırlanıb.

## DEPOZİT MƏHSULLARI

2009-cu illə müqayisədə ötən il Bank özəl əmanətçilərdən vəsaitlərin cəlb olunmasına daha az diqqət yetirirdi. Belə ki, kreditləşmənin artım templəri müştərilərin vəsaitlərinin artım tempindən geri qaldığı bir şəraitdə "Unibank" kifayət qədər likvidliyə malik idi. Digər kommersiya bankları tərəfindən əhali əmanətlərinin cəlb olunması üzrə aqressiv siyasət həyata keçirildiyi bir halda, "Unibank" il ərzində depozit portfelini 23,4 milyon manat və ya 25% artıraraq 118 milyon manata çatdırdı. Müştərilərin cari hesablarındakı qalıqlar nəzərə alınmadan depozit portfelinin artımı 40% təşkil etmişdir ki, bu da bank sektoru üzrə orta göstərini xeyli dərəcədə geridə qoyur. Özəl əmanətlərin ən çox axını 2010-cu ilin ilk rübündə qeydə alınıb və burada fəal artım da elə həmin dövrə təsadüf edib. 2007-ci ildən Azərbaycan Əmanətlərin Sığortalanması Fondunun üzvü olan «Unibank» ötən il ərzində fərdi müştərilərlə 3153 depozit sazişi imzalayıb. Yeni açılan özəl əmanətlərin 92% məbləği 50 min manatadək olan depozitlərin payına düşür. Əmanətlərin Sığortalanması Fondunun şərtlərinə müvafiq depozit hesabları sığortalanan əmanətçilərin sayı il ərzində 20,4% artıb.

İl ərzində manatın möhkəmlənməsi əhalinin əmanət əhval-ruhiyyəsində özünü büruzə verib. Əhali əsasən milli valyutada vəsait yatırımına üstünlük verib. 2010-cu il ərzində Bank əmanətlər üzrə faiz dərəcələrini azaldaraq, öz qiymət siyasətinə dəyişikliklər edib. Daha uzunmüddətli əmanətlərin axınını stimullaşdırmaq məqsədi ilə uzun müddətə yerləşdirilən əmanətlərin faiz dərəcələrindəki ixtisar daha az olub. Eyni zamanda, ilin əvvəlində "Hər kəsə hədiyyə" kampaniyası çərçivəsində hər əmanət açana Bank tərəfindən depozit məbləğinin 1% həcmində hədiyyələr verilib. Beynəlxalq qadınlar gününə həsr edilən və mart ayının 1-dən 15-dək davam edən bayram kampaniyası zamanı əmanətçi xanımlara bütün depozitlər üzrə qüvvədə olan faiz dərəcələrə əlavə olaraq, illik 1% təklif olunurdu. İlin sonunda isə Bankın VİP müştərilərini stimullaşdırmaq məqsədi ilə 50 min manat və daha




yuxarı həcmində depozit açanlara da standart faiz dərəcələrinə 1% əlavə edilib.

## MİKROKREDİTLƏR

"Unibank"da mikrokreditlər üzrə portfel 2010-cu ildə 2,6 dəfə artaraq, 6,313 mln. manatı üstələyib. Kiçik biznes sahibləri və ev təsərrüfatları tərəfindən cəlb olunan bu cür borcalmaların məbləği 200 şərti vahiddən 20000 şərti vahidədək müəyyən olunub. Mikrokreditlər ən azı 6 ay biznes fəaliyyəti ilə məşğul olan müştərilərə dövriyyə və əsas vəsaitlərin artırılması məqsədi ilə 2 aydan 2 il müddətinədək ayrılıb. Bu zaman Bank tərəfindən qəbul edilən standart təminat növləri ilə yanaşı (mənzil, torpaq sahəsi, avtomobil və zinət əşyaları), şəxsi əmlakın, mal qalığının, istehsal avadanlığının, kənd təsərrüfatı məhsullarının və zaminlik kimi təminat növləri də tətbiq edilib.
Mikrokreditlərin digər kreditlərdən əsas fərqi onların

# Məhsullar və xidmətlər

cəmiyyətdə sosial rifahın artırılmasına xidmət etməsindən ibarətdir. Bu növ kreditlər insanların biznes və təsərrüfatlarının inkişafı üçün cəlb olunaraq, birbaşa müştərilərimizin yaşayış tərzini yaxşılaşdırırlar. Eyni zamanda, mikrokreditlərin orta məbləğinin və müddətinin kiçik olması Bankın kredit risklərini minimuma endirərək, faiz gəlirlərinin effektivliyini isə, əksinə, artırır.

Mikrokreditlər üzrə faiz dərəcələrin enməsi və digər şərtlərinin müştərilər üçün daha faydalı olması səbəbindən bu növ borcalmaların həcmi daimə artır. Eyni zamanda, ötən il ilə müqayisədə "Unibank"ın məcmu kredit portfeli də 3,064 mln. manat həcmində artıb. Nəticədə Bank tərəfindən verilən kreditlərin ümumi məbləği 235 mln. manata və yaxud 300 mln. ABŞ dollarına çatıb.

Qeyd edək ki, bu zaman problemli kreditlərin həcmi kəskin sürətdə azalıb. Belə ki, 2010-cu ildə mikrokreditlər üzrə problemli sayılan borcalmaların məbləği 252 min manatdan 240 min manatadək azalıb, onların məcmu mikrokreditlər portfelindəki payı isə 2-3 dəfə enib - 10,26%-dən 3,81%-dək.

Mikrokreditləri «Unibank»ın regional filiallarında 2010-cu ilin ən aktual kredit aləti hesab etmək olar. Bu növ kredit cəlb edən müştərilərin sayı 2500 yaxın olub.

## İPOTEKA KREDİTLƏRİ

Azərbaycan İpoteka Fondunun (AİF) müvəkkil kredit təşkilatları arasında «Unibank»ın fəallığı təqdirəlayiqdir. 2010-cu ildə Bank AİF tərəfindən yenidən maliyyələşdirilən ipoteka portfelini 7 680 min manatdan 12 923 min manatadək artırdı. Bu zaman əhalinin imtiyazlı təbəqələrinə ayrılan sosial ipoteka kreditlərinin həcmi 610 min manata çatdırılıb. İl ərzində müştərilərə 153 ipoteka krediti ayrılıb və nəticədə bu növ kreditlərin sayı 80% artaraq 344 təşkil edib. Orta hesabla ötən il Bankdan cəlb edilən hər ipoteka kreditinin məbləği 38 900 AZN-ə bərabər olub, hal bu ki əvvəl bu göstərici 36 500 AZN təşkil edirdi.

AİF tərəfindən maliyyələşdirilən ipoteka kreditlərinin cəlb olunmasında maraqlı olan müştərilərin sifarişləri "Unibank"ın 2 paytaxt, Gəncə və Sumqayıt filiallarında qəbul olunur. Yaxın gələcəkdə isə müştərilərin rahatlığını təmin etmək üçün bu növ kreditlər üzrə sifarişlərin qəbulu bütün regional filial şəbəkəsində mümkün olacaq.

## BANK KARTLARI

2010-cu ildə bank kartları ilə əməliyyatların genişləndirilməsini «Unibank»-ın inkişafının prioritetlərindən biri hesab etmək lazımdır. Komisyon gəlirlərin həcmi nöqteyi-nəzərindən bu əməliyyatlar bankın göstərdiyi xidmətlər arasında əhəmiyyətinə görə ikinci yer tutur. Buna görə də, bank kartları ilə işdə Bank təkcə müştərilərə xidmətin kəmiyyət deyil, keyfiyyət parametrlərinə də xüsusi diqqət verir.

## "VİSA İNTERNATİONAL" KARTLARININ 2010-CU İLDƏ EMİSSİYASI

İlin sonuna olan məlumata görə, beynəlxalq ödəniş sisteminin aktiv kartlarının sayı nə az, nə çox 17 minə çatıb ki, bu da 2009-cu ilin sonunda olduğundan 50 % çoxdur. Qeyd etmək lazımdır ki, ötən ildən fərqli olaraq hesabat dövründə Bank tərəfindən verilmiş kredit və əməkhaqqı kartlarının emissiyası hesabına onların ümumi sayı xeyli artıb. «Unibank»da sonuncu göstərici 4 dəfə artıb və onların 62%-i «VİSA İnternational»ın payına düşür.

2010-cu ilin yayında Bank «VİSA İnternational» plastik kartları üzrə sövdələşmələrin dövriyyə




və miqdarını stimullaşdırmaq üçün lotereya kampaniyası keçirib. İyunun 16-dan avqustun 31-dək «Unibank»ın «VİSA» ödəniş sistemi kartının sahibi olan və ən azı 20 AZN/ EUR/ USD/ GDP məbləğində əməliyyat həyata keçirmiş şəxslər avtomatik olaraq mükafatların oynanılmasında iştirak edir.

«VİSA Qazandırır» lotereya kampaniyasının keçirildiyi bütün dövr ərzində ümumilikdə üç dəfə mükafatlar oynanılıb, onların hər birində 7 mükafat öz sahibini tapıb: əsas mükafat – Türkiyəyə turist səyahəti, 3 rəqəmsal fotokamera və 3 ədəd «İ-pod» musiqi pleyeri.

## "MASTERCARD İNTERNATİONAL" KARTLARININ 2010-CU İLDƏ EMİSSİYASI

Stimullaşdırıcı kampaniyanın keçirildiyi bu müddət ərzində kartlar üzrə dövriyyə tədricən artmağa başlayıb. Belə ki, kartlar üzrə dövriyyənin dinamikasını nəzərdən keçirsək, 2010-cu ildə hər ay həm sövdələşmələrin sayı, həm də onların dövriyyəsində artımın olduğunu görərik. Nəticədə,

«VİSA» sisteminin kartları üzrə dövriyyə ötən ilin




avqust ayında 2009-cu ilin yanvar-avqust ayları üzrə analoji göstəricidən 600 min ABŞ dolları çox olub. Sövdələşmələrin növləri üzrə dövriyyənin artımını nəzərdən keçirsək, qeyd etmək olar ki, riteyl-transaksiyalar üzrə dövriyyə «VİSA Qazandırır» kampaniyasının keçirildiyi dövr ərzində orta hesabla 2009-cu ilin analoji göstəricisindən 60% çox olub.

Premium seqmentin müştəriləri üçün xidmətləri aktiv inkişaf etdirərək, «Unibank» 2010-cu ildə «VİSA Infinite» unikal kartlarının buraxılmasına nail olub. «VİSA International» beynəlxalq ödəniş sistemi bu tip kart sahibləri üçün xüsusi imtiyazlar və eksklüziv xidmətlər işləyib hazırlayıblar ki, bu məhsullar da dünyadakı ən nüfuzlu mağazalar, super-marketlər, restoranlar, otellər, teatrlar, turizm agentliklərində ən  rahat və təhlükəsiz şəkildə məhsul və xidmətlərin haqqının ödənilməsini təmin edir. Bundan əlavə, «VİSA Infinite» sahibləri elit konsyerj xidmətindən də istifadə etmək imkanı əldə edirlər.

Plastik biznes sahəsində Bankın əldə etdiyi nailiyyətlər sırasına Böyük Britaniya funtlarında (GBP) «VİSA» kartlarının buraxılışını da aid etmək olar. Bu kartlar fəaliyyət növü və ya şəxsi məqsədlər üçün Böyük Britaniyaya tez-tez səfər edən şəxslər üçün nəzərdə tutulub.  GBP nominalında buraxılmış plastik kartların unikal xüsusiyyətləri sayəsində Bankın müştəriləri Böyük Britaniya valyutasında aparılan əməliyyat zamanı konvertasiya zamanı vəsait itirməyəcəklər.

## PUL KÖÇÜRMƏLƏRİ

Kəskin rəqabətə baxmayaraq, «Unibank» pul köçürmələri bazarında öz iştirakını uğurla genişləndirir. 2010-cu ilin yanvar-dekabr aylarında pul köçürmələri üzrə Bankın dövriyyəsi 49,3 milyon manat təşkil edib ki, bu da ötən ilin oxşar göstəricisindən 93% çoxdur. Fiziki şəxslər tərəfindən hesab açılmadan həyata keçirilən pul köçürmələrinin sayı il ərzində ilk dəfə olaraq 87 mini ötüb və müvafiq olaraq 92% artıb. 2009-cu ilin eyni göstəriciləri ilə müqayisədə dövriyyə və köçürmələrin sayının dinamikası 1,7 dəfə artaraq, ümumilikdə ölkə banklarının məcmu orta artım göstəricilərini 3 dəfə üstələyib.




Bu zaman ay ərzində «Unibank» xidmət şəbəkəsi vasitəsilə köçürmələrin orta miqdarı 2 dəfə artaraq 3800-dən 7300 çatıb. Nəticədə, bazarın bu seqmentində Bankın payı il ərzində 3,4%-dən 5,3%-ə qədər artıb.
Təcili pul köçürmələrinin inkişaf etdirilməsi məqsədilə 2010-cu ildə Bank eyni zamanda üç yeni pul köçürmə sistemi ilə - «Zolotaya Korona», «BLİZKO» və «Coinstar» kimi şirkətləri ilə işə başladı. Bunla da, «Unibank» əməkdaşlıq etdiyi pul köçürmələri sistemlərinin sayını ölkədə 10-a çatdırmış azsaylı banklardan biri olub.  «Coinstar» və «BLİZKO»nun fərqli cəhəti tariflərin unifikasiya edilməsi və bir dəqiqə ərzində, o cümlədən dünyanın əhəmiyyətli ölkələrinin hava limanlarında fəaliyyət göstərən «Travelex» və «Thomas Cook» maliyyə büroları vasitəsilə pul köçürməsi həyata keçirməyə və ya qəbul etməyə imkan verir. Öz növbəsində, «Zolotaya Korona» sistemi MDB ölkələrinə pul köçürmələrinin 1,5%-dən başlayan ən sərfəli tarifləri ilə seçilir. Müştərilər üçün rahatlıq həmçinin onların təkcə pulun göndərildiyi ölkə və şəhəri qeyd etməli olmasıdır.



# Məhsullar və xidmətlər

«Zolotaya Korona», «BLİZKO» və «Coinstar» sistemlərindən başqa Bank həmçinin «Western Union» (2000-ci ildən), «Bıstraya Poçta» (2005-ci ildən), «CONTACT» (2006-cı ildən), «Faster» (2007-ci ildən), «XPmoney» (2007-ci ildən) kimi beynəlxalq pul köçürmələri operatorları ilə əməkdaşlıq edir. «Unibank»-da pul köçürmə sistemləri vasitəsilə müəyyən məbləği göndərdikdə və ya qəbul etdikdə bütün müştərilər əlavə bonuslar qazanmaq şansı əldə edirlər. Bir gün ərzində «Unibank» vasitəsilə 500$/500EUR (və ya 20 000 RUR) və ya bundan böyük məbləğdə pul köçürmüş və ya qəbul etmiş şəxslər mobil telefon üçün telefon kartı şəklində bonus əldə edirlər.

Qeyd etmək lazımdır ki, bu xidmət növünə tələbatı stimullaşdırmaq üçün «Mobitel» şirkəti ilə birlikdə 2010-cu ilin sentyabr-dekabr aylarında «QƏŞŞŞŞƏNG» lotereya kampaniyası təşkil olunub. Həmin kampaniyada Bankın 15 min müştərisi iştirak edib, 200 nəfər pul göndərən və qəbul edən şəxs isə «Nokia Supernova 7210» mobil telefonuna sahib olublar. Bütün qaliblər müstəqil müşahidəçilərin iştirakı ilə təsadüfi kompüter seçməsi nəticəsində müəyyən olunublar.

## HESABLAŞMALAR VƏ ELEKTRON KOMMERSİYA

Hesabat ilində özəl müştərilər üçün xidmətlərin prioritet inkişaf istiqaməti əhaliyə göstərilən kassa-hesablaşma xidmətinin daha da yaxşılaşdırılması idi. Bu əməliyyat növləri həm onların həcmi, həm də komisyon haqlar nöqteyi-nəzərindən daha əhəmiyyətlidirlər. 2010-cu ildə fiziki şəxslərin kassa-hesablaşma əməliyyatları üzrə gəlir 52% artaraq 750 min manata yüksəlib.

Bank əhalidən ödənişlərin qəbulunu, o cümlədən kommunal ödənişləri, vergiləri, büdcəyə və dövlət büdcə fondlarına ödənişləri, habelə «GoldenPay» şirkəti ilə birlikdə on-layn ödənişləri aktiv şəkildə inkişaf etdirib. Belə ki, plastik kart sahibləri indi müstəqil şəkildə, «Unibank»ın filiallarına və xidmət bölmələrinə getmədən www.unibank.az saytı vasitəsilə on-layn rejimdə ödənişlər həyata keçirə bilərlər. «On-layn ödəniş sistemi» bölməsinə daxil olmaqla (www.unibank.az) dünyanın bütün banklarının «Visa», «Visa Electron», «MasterCard» və «Maestro» kartlarının sahibləri məsafədən və on-layn rejimdə müxtəlif xidmətləri ödəmək imkanı əldə edirlər. On-layn ödəniş sistemi əməliyyatları həmin şəxslərə kommunal xidmətləri ödəməyə, mobil və stasionar rabitə operatorlarındakı, o cümlədən «Azerfone-Vodafone», «Bakcell», «Nar Mobile», «Aztelekom» və «BTRIB»-dəki balanslarını artırmağa, habelə internet provayderləri və kabel televiziyası şirkətlərinin xidmətlərini ödəməyə imkan verir.

Bundan əlavə, sayt vasitəsilə kart sahibləri sığorta şirkətlərinin, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının distant xidmətlərindən istifadə edə, Leykemiya ilə Mübarizə İctimai Birliyi və «SOS Uşaq kəndləri Azərbaycan» humanitar təşkilatının xeyriyyə aksiyalarında iştirak edə bilərdilər. On-layn ödənişlərin etibarlılığı və təhlükəsizliyi «Visa» və «MasterCard» beynəlxalq ödəniş sistemləri vasitəsilə nəzarətdə saxlanır (VeriSign SSL şifrləmənin köməyi ilə). Elektron kommersiya sisteminin funksiyalarının artımı hesabına e-commerce sahəsində dövriyyənin həcmi 2010-cu ildə ötən illə müqayisədə 7,5 dəfə artaraq 177,715 min AZN-dən 1,777 milyon AZN-ə çatıb.



«Biz yaxşı anlayırıq ki, banklar məhz müştərilər naminə yaradılır və onlarla bərabər inkişaf edə bilər. Bu səbəbdən də hər bir fərdi müştərimizin məhz "Unibank" tərəfindən təqdim olunan xidmətlər hesabına maliyyə cəhətdən uğur qazanması işimizin ən doğru meyarıdır».

**Faiq Zeynalov,**
İdarə Heyəti sədrinin birinci müavini

## "UNİBANK" ENDİRİM KLUBU

Daima müştərilərinin rahatlığını düşünən "Unibank", 2010-cu ildə emissiya etdiyi minlərlə plastik kartlarının bütün sahibləri üçün Endirim Klub yaratdı. Artıq Bankın kartlarından istifadə edən hər bir şəxs, bu Klubun üzvü olan ticarət və xidmət şəbəkələrində xüsusi endirimlərdən faydalana bilər.

Göstərdikləri xidmətlərdə və alış-verişdə məhz "Unibank" müştərilərinə xüsusi endirimlər təklif edən (40%-dək) tərəfdaşlarmızın sayı il ərzində 69 şirkətə və 100 yaxın xidmət məntəqəsinə çatdırıldı. Onlar sırasında Azərbaycanda məşhur və tanınmış brendləri təmsil edən xarici geyim, ayaqqabı, ətriyyat, zərgərlik, mebel mağazaları, restoranlar, butiklər, fitness və tibbi mərkəzlər, dekor və gözəllik salonları, turizm agentliklrəri, otellər daxildirlər.

| Ticarət obyektinin adı | Standard və Classic kartlar | Platinum və Gold kartlar | Fəaliyyət sahəsi |
|---|---|---|---|
| Ladro, Haviland | * | 10% | çini və dekor salonu |
| Ambiance | * | 10% | çini və büllur salonu |
| Baccarat-Bernardaud | * | 10% | çini və büllur salonu |
| The House of Villeroy & Boch | * | 10% | çini və büllur salonu |
| Creative System | * | 10% | keramika salonu |
| Carpets Boutique | * | 10% | kilim butiki |
| İdea | * | 10% | mebel və işıq salonu |
| Museum | * | 10% | mebel butiki |
| Yves Delorme | * | 10% | fransız yataq dəstləri butiki |
| Bang & Olufsen | * | 10% | audio və video salonu |
| CHOPARD | * | 10% | zərgərlik dükanı |
| ROBERTO COIN DE GRISOGO NO | * | 10% | zərgərlik dükanı |
| ROYAL Collection | * | 10% | zərgərlik dükanı |
| İDEA | * | 10% | mebel butiki |
| LA PARFUMERIE | 15% | 20-25% | ətriyyat |
| Orchidee | 15% | 20-25% | ətriyyat |
| IDEAL | 10% | 15-20% | ətriyyat |
| LUİSA SPAGNOLİ | 10% | 20% | geyim mağazası |
| SOİREE | 10% | 20% | geyim mağazası |
| Camel Active | * | 10% | geyim mağazası |
| Stefanel | * | 10% | geyim mağazası |
| Tom Tailor | * | 10% | geyim mağazası |
| Parad | * | 10% | geyim mağazası |
| GEOX | * | 10% | geyim mağazası |
| Baldinini | * | 10% | ayaqqabı mağazası |
| Allure | * | 10% | ayaqqabı mağazası |
| Salamander | * | 10% | ayaqqabı mağazası |
| Ecco | * | 15% | ayaqqabı mağazası |
| Cristal optik | 25% | 25% | optika mağazası |
| Palace Hotel | 10% | 15% | otel |
| Afra Hotel | 10% | 10% | otel |
| Panorama Villa Lux | 10% | 20% | otel |
| Oscar | 10% | 20% | restoran |
| Mado | 10% | 10% | restoran |
| Sherlocks Beach | 10% | 10% | restoran |

| Ticarət obyektinin adı | Standard və Classic kartlar | Platinum və Gold kartlar | Fəaliyyət sahəsi |
|---|---|---|---|
| Pəncərə | 10% | 10% | restoran |
| Mozart | 10% | 10% | restoran |
| Finestra | 10% | 10% | restoran |
| Marko Polo | 10% | 15% | restoran |
| Balizza Cafe | 10% | 10% | kafe |
| Balizza | 10% | 15% | geyim mağazası |
| Michel | 10% | 15-20% | geyim mağazası |
| Garage | 10% | 15-20% | geyim mağazası |
| Studio N | 10% | 15-20% | geyim mağazası |
| Citimart | 5% | 5% | supermarket |
| De Lazzaro | 10% | 20% | zərgərlik dükanı |
| STEPEVİ | * | 15% | xalça və dekor |
| Granit AS | 10% | 10% | turizm şirkəti |
| B&B TV | 15% | 20% | kabel televizayası |
| Megasun | 10% | 15% | salarium |
| Şəfa sağlamlıq mərkəzi | 25 -35% | 50% | sağlamlıq mərkəzi |
| Avropa oteli | 10% | 15-20% | otel |
| Olympus sağlamlıq mərkəzi | 10% | 15-20% | sağlamlıq mərkəzi |
| Caviar və Caspian restoranı | 10% | 15-20% | restoran |
| Capinas club | 10% | 15-20% | klub |
| SWAROWSKI | * | 10% | büllur bəzəklər dükanı |
| Pit-Stop | 10 | 15%-20% | restoran |
| Bateel | 10% | 20% | şirniyyat butiki |
| Bəh-Bəh klub | 5% | 8% | restoran |
| Trin Trava restoranı | 5% | 8% | restoran |
| Anadolu restoranı | 10% | 15% | restoran |
| Afurca şirniyyat | 20% | 25% | şirniyyat evi |
| Baku Kartinq | 10% | 20% | kartinq |
| Rich Club | 10% | 20% | club |
| Cestbon | 15% | 15% | fastfood |
| Bella Pizza | 15% | 15% | fastfood |
| Bəyaz | 10% | 15% | kimyəvi təmizləmə |
| ZINGAL RICHİE | 20% | 20% | geyim mağazası |
| PİZZA İNN | 15% | 15% | restoran |
| GRBS | 10% | 15% | peşəkar təlimlər |





# Sinəbənd

XVI-XVIII əsrlərin müdafiə silahıdır.
Poladdandır, üzəri qızıl işləmələrlə, nəbati ornamentlərlə bəzədilmişdir.

# Xidmət şəbəkəsi

Azərbaycan iqtisadiyyatının maliyyə xidmətlərinə tələbatının təmin edilməsi məqsədi ilə "Unibank" ASC-nin xidmət şəbəkəsi daim genişləndirilir. "Unibank" bu gün ölkənin paytaxtı ilə bərabər 8 şəhərdə fəaliyyət göstərir və 100 mindən artıq özəl və korporativ müştəriyə xidmət edir.

2010-cu ildə Bank filallarının sayı 23-ə, şöbələrin sayı isə 3-ə çatdırılmışdır. Belə ki, ötən ilin birinci rübündə Lənkəran şəhərində yeni filial, Gəncənin Kəpəz rayonunda isə Bankın yeni şöbəsi açıldı. Hər iki qurum müştərilərə Bank tərəfindən təqdim olunan xidmətlərin bütün çeşidini təklif edir – fərdi və korporativ müştərilərdən depozitlərin qəbulu, istehlak kreditləri və mikromaliyyələşdirilmə, biznes-kreditləşdirilmə, pul köçürmələri, plastik kartlar üzrə xidmətlər və kommunal ödənişlər.

Xidmət şəbəkəsinin məhz bölgələrdə genişləndirilməsi Bankın regionlardakı müştərilərinə daha yaxın olmaq və fayda gətirə biləcək xidmət göstərmək istəyindən irəli gəlir. Təsadüfi deyil ki, son iki-üç il ərzində "Unibank" 14 yeni filial və şöbə açmışdır ki, bunlardan 6-sı regionlarda fəaliyyət göstərir.

Müştərilərin istəklərinə cavab olaraq, il ərzində Bank tərəfindən 11 yeni ATM quraşdırılb, 5 ATM-in yeri isə dəyişdirilib. Bundan başqa, 2011-ci ildə filiallarda müasir kümatik növbə sistemlərin quraşdırılması üçün müvafiq tədbirlər görülüb.




## "UNİPLAZA"

2010-cu il bizim üçün Bankın baş ofisinin yeni binaya – «Uniplaza»ya köçməsindən başlandı. «Uniplaza»nın Azərbaycanda ən yaxşı memarlıq layihəsi olduğu etiraf olunub. Adı çəkilən layihənin ən yaxşı layihə olduğunu təsdiq edən Diplom Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və Memarlar İttifaqı tərəfindən binanın müəllifi Nəriman İmaməliyevə təqdim olunub.

«Unibank» ASC-nin baş ofisinin yeni, 11 mərtəbəli binası Rəşid Behbudov küçəsində (əvvəlki binanın yaxınlığında) yerləşir. Bankın yeni mənzil-qərargahının bütün mərtəbələrinin ümumi sahəsi 6000 kv.m.-dən çoxdur. Yeni binanın ilk iki mərtəbəsi sırf müştərilərə xidmət üçün nəzərdə tutulub. Həm də, 1-ci mərtəbədə fərdi və korporativ müştərilərə, 2-ci mərtəbədə isə VIP-müştərilərə xidmət zonası yerləşib.

«Uniplaza» bank texnologiyalarının son nailiyyətlərinə uyğun olaraq təchiz olunub. Burada saxlanc, depozitari, hər mərtəbədə danışıqlar və iclas zalları, habelə böyük konfrans zalı var. Bina qabaqcıl təhlükəsizlik və yanğından-mühafizə sistemi ilə təchiz olunub. Binanın layihəsi və üzərindəki naxışların keyfiyyəti «A» sinfinə müvafiqdir. «Uniplaza»-nın tikintisi «Currie and Brown» beynəlxalq şirkətinin nəzarəti altında həyata keçirilib.

## FİLİALLAR

"Əcəmi" filialı, Bakı şəhəri, 5-ci mikrorayon, Tağızadə küç., 22 "a", AMB tərəfindən verilmiş 28 aprel 2007-ci il tarixli 73/7 saylı icazə;

"Gəncə" filialı, Gəncə şəhəri, 28 may küçəsi, 1, AMB tərəfindən verilmiş 25 aprel 2003-cü il tarixli 73/1 saylı icazə

"Quba" filialı, Quba şəhəri, H.Əliyev pr.,225, AMB tərəfindən verilmiş 5 avqust 2008-ci il tarixli 73/20 saylı icazə

"Mingəçevir" filialı, Mingəçevir şəhəri, H.Əliyev pr.,47/2, AMB tərəfindən verilmiş 22 dekabr 2008-ci il tarixli 73/22 saylı icazə

"Nərimanov" filialı, Bakı şəhəri, Nərimanov rayonu, Təbriz küç., 94, AMB tərəfindən verilmiş 08 aprel 2008-ci il tarixli 73/6 saylı icazə (18 aprel 2007-ci il tarixli icazənin əvəzinə);

"Neftçilər" filialı, Bakı şəhəri, Qara Qarayev küç., 66 "c", AMB tərəfindən verilmiş 15 may 2006-cı il tarixli 73/4 saylı icazə

"STB" filialı, Bakı şəhəri, Xətai rayonu, Telnov küç, 20/22 AMB tərəfindən verilmiş 08 may 2009-cu il tarixli 73/2 saylı icazə (15 oktyabr 2002 və 25 aprel 2003-cü il tarixli icazənin əvəzinə);

"Sumqayıt" filialı, Sumqayıt şəhəri, Sülh küçəsi, 30-cu məhəllə, bina 11/1, AMB tərəfindən verilmiş 08 avqust 2006-cı il tarixli 73/5 saylı icazə;

"Şəki" filialı, Şəki şəhəri, M.Ə.Rəsulzadə küç., 180, AMB tərəfindən verilmiş 15 may 2008-ci il tarixli 73/17 saylı icazə;

"Şəmkir" filialı, Şəmkir şəhəri, 20 Yanvar küç., AMB tərəfindən verilmiş 27 may 2008-ci il tarixli 73/19 saylı icazə;

"Yasamal" filialı, Bakı şəhəri, B.Bağırova küç., 2, AMB tərəfindən verilmiş 17 avqust 2007-ci il tarixli icazə (04 aprel 2005-ci il tarixli 73/3 saylı icazənin əvəzinə);

8 Saylı filial, Bakı şəhəri, Binəqədi rayonu, C. Xəndan küç.,40 "a", AMB tərəfindən verilmiş 22 avqust 2007-ci il tarixli 73/8 saylı icazə;

9 Saylı filial, Bakı şəhəri, Səbail rayonu, Neftçilər pr. 14, AMB tərəfindən verilmiş 11 sentyabr 2007-ci il tarixli 73/9 saylı icazə;;

10 Saylı filial, Bakı şəhəri, Xətai rayonu, M.Hadi küç., 33, AMB tərəfindən verilmiş 31 avqust 2007-ci il tarixli 73/10 saylı icazə

12 Saylı filial, Bakı şəhəri, Nəsimi rayonu, H.Əliyev küç., 5"a", AMB tərəfindən verilmiş 16 noyabr 2007-ci il tarixli 73/12 saylı icazə ;

13 Saylı filial, Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küç., İnşaatçılar metrosu yaxnlığındakı ticarət cərgəsində, AMB tərəfindən verilmiş 29 dekabr 2007-ci il tarixli 73/15 saylı icazə ;

14 Saylı filial, Bakı şəhəri, Xətai rayonu, Babək pr., 2199-cu məhəllə, AMB tərəfindən verilmiş 28 dekabr 2007-ci il tarixli 73/14 saylı icazə ;

15 Saylı filial, Bakı şəhəri, Nəsimi rayonu, D.Əliyeva küç., 243, AMB tərəfindən verilmiş 31 yanvar 2008-ci il tarixli 73/16 saylı icazə;

16 Saylı filial, Bakı şəhəri, B.Sərdarov küç., 128-ci məhəllə, ev 16, AMB tərəfindən verilmiş 15 may 2008-ci il tarixli 73/18 saylı icazə;

17 Saylı filial, Bakı şəhəri, Nəsimi rayonu, R.Behbudov küç., 65, AMB tərəfindən verilmiş 16 noyabr 2007-ci il tarixli 73/11 saylı icazə;

19 Saylı filial, Bakı şəhəri, Sülh küç.,14/2, AMB tərəfindən verilmiş 26 noyabr 2008-ci il tarixli 73/21 saylı icazə ;

"Lənkəran filialı", Lənkəran şəhəri, Zərifə Əliyeva küçəsi 12, AMB tərəfindən verilmiş 03 fevral 2010-cu il tarixli 73/23 saylı icazə (13 iyul 2010-cu il tarixli icazənin əvəzinə)

## ŞÖBƏLƏR

"Gənclik şöbəsi", Bakı şəhəri , Nərimanov rayonu, F. Xoyski küçəsi,79, AMB tərəfindən verilmiş 18 iyun 2008-ci il tarixli 73/Ş-1 saylı icazə

"Gəncə şöbəsi" Gəncə şəhəri, Kəpəz rayonu, Ş.Hüseynov küç.,2, mən. 1,2,3,
AMB tərəfindən verilimiş 30.12.2009-cu il tarixli 73/Ş-2 saylı icazə

"1 saylı" Mübadilə Şöbəsi Bakı şəhəri, Təbriz Xəlilbəyli küç., 5, AMB tərəfindən verilmiş 10 dekabr 2010-cu il tarixli 73/MŞ-2 saylı icazə





# Tüfəng

XIX əsr. Odlu silah.
Lüləsi poladdan, qundağı taxtadandır. Onun üzərində ağ sümükdən qayma üsulu ilə inkrustasiyaları vardır.

# Korporativ biznesin dəstəklənməsi

## KREDİTLƏŞMƏ

2010-cu ildə maliyyə bazarlarında və iqtisadiyyatda vəziyyət sabitləşdikcə korporativ sektorda kredit resurslarına tələbat artmağa başlayıb. Korporativ müştərilərin kreditləşməsi «Unibank» üçün əsas hədəflərdən biridir və hesbat ilində kredit portfelinin artımı ilə bərabər onun gəlirliliyi və keyfiyyəti, eləcə də kredit proseslərinin optimallaşdırılması, mikrobiznes və iri şirkətlər arasında optimal balansın təmin olunması kimi vəzifələr qoyulmuşdu.

İqtisadiyyatın real sektoruna sərmayələrin həcminə görə «Unibank» ölkənin bank sektorunda daha əhəmiyyətli mövqelər tutmağa çalışır. 2010-cu il ərzində Bank korporativ müştərilərə 52,4 milyon manat məbləğində kreditlər ayırıb. Bunun nəticəsində biznes-kreditlərin portfeli ilin sonunda 76,5 milyon AZN-ə çatıb. Bu zaman ilin ikinci yarısında ayrılmış kreditlərin həcmi ilin birinci yarısı ilə müqayisədə 1,5 dəfə artıb.

Bank aktiv şəkildə həm ölkədə əlavə dəyərin xeyli hissəsini formalaşdıran şirkətlərlə, həm də mikro və kiçik biznes qurumları ilə qarşılıqlı fəaliyyət göstərib. Kreditləşmə nöqteyi-nəzərindən prioritet uğurlu kredit tarixçəsinə malik olan müəssisələrə verilib. Bu cür şirkətlərin dövriyyələri də əsasən onların «Unibank»da açdıqları hesablarından keçir. Kiçik biznes seqmentində Bankın əsas məqsədi müştərilərin kütləvi tələbatına müvafiq olan sadə, standartlaşdırılmış keyfiyyətli kredit məhsulu və xidmətlərinin təqdim edilməsidir.

Qeyd etmək lazımdır ki, korporativ müştərilərin portfeli üzrə kreditləşmə dərəcəsi il ərzində 1 faiz bəndi azalaraq 20,8%-dən 19,8%-ə düşüb.

## TİCARƏT VƏ İXRAC MALİYYƏLƏŞDİRMƏSİ

2010-cu ildə Azərbaycan şirkətlərinin xarici iqtisadi fəaliyyətinin tədricən bərpası başlanıb. Bu şəraitdə «Unibank» müştərilərin ticarət və ixrac maliyyələşdirməsinin həcmini xeyli artırıb. Bank əməliyyatlarının həcmi 2009-cu illə müqayisədə 41% artaraq, 12 milyon manatı ötüb. Bank ixrac-kredit agentliklərinin zəmanətlərindən və strukturlaşdırılmış maliyyələşdirmə alətlərindən istifadə etməklə aktiv şəkildə ticarət maliyyələşdirilməsi alətlərini inkişaf etdirib. Zəmanətli əməliyyatlardan əldə olunan gəlir 300 min manata yaxın olub.

Müştərilərin xarici iqtisadi fəaliyyətinin inkişafına yardım və beynəlxalq hesablaşmaların aparılmasının keyfiyyətinin yaxşılaşdırılması məqsədilə «Unibank» beynəlxalq maliyyə təsisatları ilə əməkdaşlığı davam etdirərək, 2010-cu ildə üç aparıcı xarici bankla əlavə sazişlər imzalayıb.

## VƏSAİTLƏRIN CƏLB OLUNMASI

2010-cu ildə, likvidliyin artıqlığı şəraitində hüquqi şəxslərin vəsaitlərinin cəlb olunması Bank üçün prioritet olmayıb. Əsas diqqət göstərilən xidmətin keyfiyyətinin, müştəri loyallığın artırılmasına yetirilirib. Bank tərəfindən bütün alətlər üzrə faiz dərəcələrinin aşağı salınmasına baxmayaraq, hüquqi şəxslərdən cəlb olunmuş vəsaitlərinin qalığı 14,9 milyon AZN təşkil edib. Müştərilərin cəlb olunması uğrunda mübarizədə qiymət rəqabətindən imtina edilməsi bank sektoru üzrə korporativ müştərilərin depozitlərinin məcmu göstəricisində "Unibank"ın payının azalmasını şərtləndirib.

## HESABLAŞMA-KASSA XİDMƏTİ

"Unibank" müştərilərinin böyük əksəriyyəti hesablaşma-kassa xidmətindən istifadə edir. Həmin xidmətlər üzrə gəlir ənənəvi olaraq bütün komissiya haqların xeyli hissəsini təşkil edir – 1,3 milyon manat və ya 2010-cu il üçün məcmu komisiya gəlirlərin 31% qədər. Yüksək rəqabətin hökm sürdüyü bu bazarda, xidmətləri irəlilətməklə Bank prosesləri optimallaşdırmağa və müştərilər üçün rahatlığı artırmağa çalışır. Nəticədə, biznes istiqamətindən komisya gəlirlərinin səviyyəsi ümumilikdə Bankın komisiya gəlirlərində 46% təşkil edib.

2010-cu ildə Bank müştərinin müraciət etdiyi andan bank rekvizitlərinin alınması vaxtına qədər olan müddəti əhəmiyyətli dərəcədə azaldıb, müştərinin arzularının və biznesinin spesifikasının nəzərə alınması üçün bank hesabı barədə müqavilənin dəyişdirilməsi imkanını nəzərdən keçirib, elektron sənəd mübadiləsinin tətbiqi hesabına ödəniş tələblərinin yerinə yetirilmə müddətini qısaldıb. İnternet-bankinq vasitəsilə «Unibank»ın müştəriləri məsafədən, İnternet vasitəsilə tam bank xidmətləri əldə etmək imkanı əldə ediblər. 2010-cu il ərzində belə müştərilərin sayı iki dəfə artaraq 307-yə çatıb.

## İNKASSASİYA

Bank müştərilərə inkassasiya xidmətləri göstərir: nağd pul vəsaitlərinin və qiymətlilərin çatdırılması və inkassasiyası, bankomatlara və özünə xidmət qurğularına xidmət göstərilməsi. 2010-cu il ərzində inkassasiya əməliyyatları üzrə gəlir 147 min. AZN və ya Bankın ümumi komisyon gəlirlərinin 4%-i qədər olub.

Ənənəvi xidmətlərdən başqaı, ötən ildən etibarən Bankın müştəriləri yeni xidmətlərdən də istifadə edə bilərlər. Belə xidmətlər sırasına müştərilərin mədaxilinin qəbul olunması və həmin məbləğin digər kredit təşkilatlarında açdıqları hesablara köçürülməsi, habelə, müştərilərin yeni ticarət obyektlərinin açılması zamanı bir nominaldan olan metal və kağız pulların digər nominaldan olan pullara dəyişdirilmək üçün çatdırılması.



«Azərbaycanın iş adamları üçün təklif etdiyimiz xidmətlərə tələbat daima artır. Əminik ki, bundan sonra da korporativ müştərilərimiz bizim simamızda yaxşı bank servisinə və etibarlı maliyyə tərəfdaşına arxalana bilərlər. İstərdim ki, ölkənin işgüzar dairələri bank bazarında əldə oluna biləcək ən keyfiyyətli və ən rahat xidmətlərin üstünlüklərini məhz "Unibank"la tanısınlar."

**Vaqif Qəribli**
Korporativ bank xidmətləri üzrə direktor





# Qolçaq

XVI-XVIII əsrlərin müdafiə silahıdır.
Poladdandır, üzəri qızıl işləmələrlə,
ov və döyüş səhnələri əks etdirən ornamentlərlə bəzədilmişdir.

# Beynəlxalq reytinqlər

2010-cu ildə "Fitch Ratings" beynəlxalq reytinq agentliyi "Unibank" Kommersiya Bankı" ASC-nin fərdi reytinqini "E" dərəcədən "D/E" həmhüdud dərəcəsinə qədər artırdı. Bununla yanaşı, agentlik Banka münasibətdə əvvəl verdiyi reytinqlərini təsdiqləyib. Emitentin defoltu reytinqi (IDR) "B –" (B minus) səviyyəsində, "Sabit" proqnozla təsdiq edildi, qısamüddətli reytinq "B" səviyyəsində, dəstəklənmə reytinqi isə "5" səviyyəsində müəyyən olunub. Fərdi reytinqin artırılması nizamnamə kapitalının artırılmasından irəli gələn Bank likvidliyinin yüksəlməsini və maliyyə göstəricilərinin möhkəmlənməsini əks etdirir. "Fitch" tərəfindən yalnız banklara verilən fərdi reytinqlər, onların mövqelərinin, kənardan dəstəklənmə nəzərə alınmadan, qiymətləndirilməsi məqsədi ilə verilir. Bu reytinqlər bankların risklərə məruz qalma səviyyəsini əsk etdirir. Onların müəyyən edilməsi zamanı təhlil olunan başlıca amillərə bankın gəlirliliyi, şəffaflığı, kapitallaşdırılması, müştəri bazası və ölçüləri, idarəetmə səviyyəsi, fəaliyyətinin diversifikasiyası, iqtisadi mühit və inkişaf perspektivləri aiddir. Bu səbəbdən də "Fitch" tərəfindən "Unibank"ın fərdi reytinqinin artırılmasını qlobal iqtisadi böhran zamanı Bankda tətbiq olunan biznes-modelin yüksək səciyyələndirilməsi kimi qəbul etmək olar. Qeyd etmək lazımdır ki, "Fitch"in "Unibank"a qarşı reytinq addımları 2010-cu ildə Azərbaycan banklarına verdiyi ilk pozitiv addımlarından biri hesablanır. Öz növbəsində, digər tanınmış reytinq agentliyi – «Moody's Investors Service» – «Unibank»ın xarici və milli valyutalarda uzunmüddətli depozitlərin reytinqini yenidən «B2» səviyyəsində müəyyənləşdirmişdir. «Moody's» həmçinin Bankın maliyyə dayanıqlıq reytinqini (BFSR - Bank Financial Strength Rating) təkrar olaraq «E+» səviyyəsində müəyyən etmişdir.
Reytinqlər həmçinin Bankda müştəri bazasının ölçülərini, passivlər strukturunun diversifikasiyasını, eləcə də AYIB, "DEG" (Deutsche Investitions - und Entwicklungsgesellschaft mbH) sərmayə qrupu, Niderlandın Maliyyə İnkişaf Şirkəti ("FMO") və Avstriya Inkişaf Banki ("OeEB") tərəfindən ayrılan $83 milyon həcmində maliyyə paketi hesabına genişlənən fondlaşdırılma bazasını nəzərə alır.

| FİTCH KREDİT REYTİNQLƏRİ | SONUNCU (08.02.2010-cu il) | ƏVVƏLKİ (21.04.2009-cu il) |
|---|---|---|
| PROQNOZ | SABİT | SABİT |
| XARİCİ VALYUTADA EMİTENTİN UZUNMÜDDƏTLİ DEFOLT REYTİNQİ | «B-» («B MİNUS») | «B-» («B MİNUS») |
| MİLLİ VALYUTADA EMİTENTİN UZUNMÜDDƏTLİ DEFOLT REYTİNQİ | «B-» («B MİNUS») | «B -» («B MİNUS») |
| XARİCİ VALYUTADA QISAMÜDDƏTLİ REYTİNQ | «B» | «B» |
| FƏRDİ REYTİNQ | «D/E» | «E» |
| DƏSTƏK REYTİNQİ | 5 | 5 |
| **MOODYS KREDİT REYTİNQLƏRİ** | **SONUNCU (10.08.2010-cu il)** | **ƏVVƏLKİ (05.08.2009-cu il)** |
| PROQNOZ | «NEQATİV» | «NEQATİV» |
| ƏSAS KREDİT REYTİNQİ | «Ba2» | «Ba2» |
| XARİCİ VALYUTADA QISAMÜDDƏTLİ REYTİNQ | «B2» | «B2» |
| XARİCİ VALYUTADA UZUNMÜDDƏTLİ REYTİNQ | «Baa2» | «Baa2» |
| MİLLİ VALYUTADA QISAMÜDDƏTLİ REYTİNQ | «Prime-2 (P-2)». | «Prime-2 (P-2)». |
| MALİYYƏ DAYANIQLIĞI REYTİNQİ (BFSR) | «E+» | «E+» |

# İnsan resursları

2010-cu ildə İnsan Resursları (İR) Bölməsinin əsas vəzifəsi ümumi sayı artıq 710 nəfərə çatan Bank əməkdaşlarının peşəkar səviyyəsinin qaldırılması, işçi heyət arasında komanda ruhunun yüksəldilməsi və korporativ mədəniyyətin təbliğatı idi.

Bundan başqa, İR Bölməsi tərəfindən 2010-cu ildə bir sıra layihələr həyata keçirilmişdir. Belə ki, ilin əvvəlində açılmış Lənkəran filialı, Gəncə şöbəsi və 1 saylı mübadilə məntəqəsinin işçi heyəti Bankın daxili qaydalarına uyğun olaraq tam hazırlanmışdır və yeni struktur qurumlar işçi heyəti ilə komplektləşdirimişdir.

İR Bölməsinin əməkdaşları Əmək və əhalinin sosial müdafiəsi Nazirliyinin Baş Məşğulluq İdarəsi tərəfindən təşkil edilən Əmək yarmarkalarında da yaxından iştirak etmişlər. İl ərzində Bank tərəfindən 226 yeni işçi qəbul edilmişdir və onlardan 93 nəfər yeni vakant vəzifələrə dəvət olunmuşlar. İR Bölməsi tərəfindən mikromaliyyələşdirmə biznesinin inkişafı və effektivliyinin artırılması ilə əlaqədar tədbirlər planı tərtib olunmuşdur. Bu plana əsasən Bakı və regional filiallarda 40-dan artıq mikromaliyyələşdirmə üzrə mütəxəssis təlimləndirilmiş və işə qəbul edilmişdir. Bundan başqa, 2011-ci ildə açılacaq yeni vakant yerlər üçün kadrlar seçilmiş və onların bankın mövcud filiallarında təcrübə keçməsinə şərait yaradılmışdır.

Mövcud işçi heyəti arasında komanda ruhunun yüksəldilməsi məqsədilə bir neçə korporativ tədbirlər və «teambuilding»lər təşkil olunub. Ən əsası isə son bir il ərzində "Unibank" əməkdaşlarının 60%-nin əmək haqqları qaldırılmış, işçi heyətinin 1/3-i barəsində isə maddi həvəsləndirmə, eləcədə tutduqları vəzifə və peşə dərəcələrinin artırılması tədbirləri görülmüşdür.

## "UNİTRAİNİNG"

"Unitraining" – "Unibank" ASC-də kadrların peşəkar səviyyədə hazırlanması üçün cavabdeh olan və personalın təlimləndirilməsində sistem yanaşmanı təmin edən korporativ Təlim mərkəzidir.
2008-ci ildə bu Təlim mərkəzinin yaradılması zamanı onun qarşısında Bankın təcrübəsinə əsaslanan qabaqcıl biznes-təhsil sisteminin işlənib hazırlanması və tətbiq edilməsi vəzifəsi qoyulmuşdu. Bu gün "Unitraining"də iki başlıca istiqamətdə təlimləndirilmə yerinə yetirilir:

• adaptiv – stajorlar və yeni əməkdaşlar üçün;
• ixtisaslaşdırılmış – artıq fəaliyyət göstərən personal üçün.

Adaptiv təlim proqramı yeni əməkdaşlarda "Unibank" ASC-nin strukturu, norma və dəyərlər sistemi, onun fəaliyyətinin texnoloji və digər korporativ xüsusiyyətləri haqqında biliyin formalaşmasına yönəlmişdir. Öz növbəsində, ixtisaslaşdırılmış təlim, bank işinin səciyyəsini, əməkdaşların davranış vərdişlərinin (soft skills) inkişaf etdirilməsini, müştəri xidməti üzrə treninqləri və digər sahələri əhatə edir. Təlim mərkəzinin bütün məşqçiləri – Bankın orta və ali idarəetmə səviyyələrinin, Frankfurt Maliyyə və Biznes Məktəbi tərəfindən təşkil edilmiş müvafiq "Məşqçilər üçün treninq" kursunu keçmiş, rəhbərlərdir.

2010-cu ildə "Unitraining" Bankın İdarə Heyəti tərəfindən təsdiqlənən kompleks təlimlənmə proqramı çərçivəsində 70-ə yaxın treninq və seminar keçirmişdir. Bank işinin bir sahəsinin mütəxəssislərinə maliyyə fəaliyyətinin digər sahələrində də səriştəli olmaq imkanı verən bu proqramlarda 600-ə yaxın dinləyici iştirak etmişdir.

Təlim prosesinin təşkilindən başqa, "Unitraining" Bank personalının qiymətləndirilməsi proseduruasını da müvəffəqiyyətlə həyata keçirir. Əməkdaşların cəld qiymətləndirilməsi sisteminin (Assessment center) tətbiq edilməsi sayəsində, Bank özünün hər bir işçisinin şəxsi və peşəkar keyfiyyətlərinin tam təsvirini əldə edir. Psixoloji testlərin və müsahibələrin tətbiq edilməsindən savayı, bu qiymətləndirilmə sistemi, iştirakçılarının real vəziyyəti – peşəkar məsələlərin həllinin, müştərilərlə danışıqların və s.-nin modelləşdirildiyi, davranış tapşırıqlarından və işgüzar oyunlardan istifadə edir. Bundan əlavə, personalın təlimlənmədə tələbatının aşkar edilməsi yerinə yetirilir. Yaxın gələcəkdə "Unitraining" yeni təlim proqramlarının işlənib hazırlanmasını və yerinə yetirilməsini, personalın qiymətləndirilməsi prosesinin təkmilləşdirilməsini, habelə distansionar təlimləndirilmə proqramının tətbiq edilməsini planlaşdırır.

## UNİDRESS-KOD

«Unibank» ölkədə ilk və hələ də azsaylı banklardan biridir ki, öz korporativ üslubuna xüsusi diqqət yetirir. Bu diqqət korporativ üslubun bütün cəhətlərinə aiddir – bazarda mövqelənməyə, ictimai məsuliyyətə, imicin möhkəmləndirilməsinə. Qısa bir zamanda Bankda yeni loqotipə, yeni rənglərə, bina və otaqların yeni standartlaşdırılmış tərtibatına müvəffəqiyyətli keçid həyata keçirilib. Bu dəyişikliklər əməkdaşların geyiminin korporativ üslubundan da yan keçməmişlər, konkret olaraq, bilavasitə müştərilərlə işləyən bank personalının geyimi unifikasiya olunmuşdur.

Ölkənin ən çox müştəri yönümlü banklarından biri olmaq istəyən «Unibank», korporativ mədəniyyətinin inkişafı naminə 2010-cu ildə dress-koda əlavələrin edilməsini zəruri hesab etmişdir. Təcrübə onu göstərdi ki, işçilərmizin xüsusi və bir üslubdakı geyimi Bank barədə yalnız müsbət və etibarlılıq təəssüratları yaradır, əməkdaşlar arasında isə onların komanda vəhdətliyini vurğulayan bir amilə çevrilir.

Dress-kodun təkmilləşdirilməsi, tətbiq olunan işgüzar geyim incəlikləri işçi heyətinin ümumilik hissi ilə yanaşı onların hər birinin zəngin daxili aləmini əks etdirir. Bu zaman yeni geyim elementlərinin nəzər çarpması «Unibank»ın korporativ mədəniyyətini ifadə etməklə, onun daha böyük və ciddi miqyasda müştərilər tərəfindən qəbul olunmasına kömək edir.





# “Zülfüqar” tipli iki tiyəli qılınc

XVIII əsrin kəsici-batırıcı silahıdır.
Tiyəsi Dəməşq poladındandır. İki tiyəli qılıncın üzərində ərəb yazıları, nəbati ornamenlər təsvir olunub.

# İnformasiya texnologiyaları və innovasiyalar

Unibank»ın yeni inkişaf strategiyasının məqsədi informasiya texnologiyaları sahəsində eyni zamanda bir neçə məqsədə nail olmaqdır. İlk növbədə bu onunla əlaqədardır ki, yüksək texnologiyalara əsaslanan və müştərilər tərəfindən tələbat olan bir sıra xidmətlər hesabına həm Bankın rəqabət qabiliyyəti artırılacaq, həm də onun əməliyyatlarının səmərəliliyi yüksələcək.

Bu məqsədlərə çatmaq üçün 2010-cu ildə bir sıra miqyaslı İT-layihələrə start verilib ki, bunlar da məhsullar çeşidinin dəstəklənməsinə, müştərilərə məsafədən xidmət formalarının inkişafına, əməliyyat proseslərinin optimallaşdırılması və avtomatlaşdırılması, habelə biznesin fasiləsizliyinə istiqamətlənib. İlk növbədə, dünyada ən müasir və uğurlu İT-təcrübələrdən biri hesab olunan müştərilərlə münasibətlərin idarə olunması üzrə avtomatlaşdırılmış sistemin (CRM) tətbiqinə başlanıb. Bundan əlavə, məsafədən xidmətin ən yaxşı kanallarından biri kimi, İnternet-bankinq sisteminin interfeysinin dəstəklənməsi və təkmilləşdirilməsi üzrə tədbirlər də həyata keçirilib.

İdarəetmə həlləri üçün yeni alətlərdən biri kimi, «Unibank» mütəxəssisləri tərəfindən "F-Line Technologies" (FLT) şirkətinin dəstəyi ilə unikal "UCAS" (Unibank Credit Analytical System) analitik sisteminin tətbiq edilməsi üzrə işlər başa çatdırılıb. Bu proqram təminatında məlumatların işlənməsi bütün xidmət şəbəkəsi üzrə aparılır və borcalanların sifarişlərində bir sıra məlumatları nəzərə almağa imkan verir. Bununla da standart kredit alətləri üzrə qərarların qəbul olunmasına sərf olunan vaxtın azalması, bu qəbildən olan qərarların lazımi səviyyədə mərkəzləşdirilməsi, müasir metodoloji üsulların tətbiqi təmin olunur. Nəticədə, "Unibank", Azərbaycanda birincilərdən olaraq, ekspress-kreditləşdirilmənin keyfiyyətcə yeni modelinə və bütün filial şəbəkəsi üzrə risklərin operativ sürətdə təhlilinə keçmişdir.

"UCAS" sistemi kredit riskləri şöbəsinin əməkdaşları tərəfindən kredit sifarişlərinin işlənməsinin sürətləndirilməsi və borcalanların kredit qabiliyyətinin qiymətləndirilməsi alqoritmində daha mürəkkəb hesablamaların istifadəsinə yol açır. Bu layihə Bankda memorandumların elektron sənəd dövriyyəsi və kredit müqavilələrinin vahid analitik informasiya sistemində aparılması praktikasına keçidinin həyata keçirilməsi üçün reallaşdırılmışdır.

"UCAS" kredit sifarişlərinə, müştərinin fəaliyyət növündən, onların biznesinin miqyasından və ya yerləşdiyi yerdən asılı olmayaraq, unikal yanaşmanı təmin edir. Bu "Unibank"a, kredit portfelinin keyfiyyətinin məqbul səviyyəsinin qorunub saxlanması hesabına, müştərinin tələblərinə və prioritetlərinə cavab vermək, həmçinin etibarlı və maliyyə baxımından dayanıqlı müştərilərin dairəsini genişləndirmək imkanı verir. Qeyd edək ki, "UCAS" ilk növbədə, ekspress-kreditləşdirilmə də daxil olmaqla, biznesin maliyyələşdirilməsi üçün nəzərdə tutulub. Bu sistem, real vaxt rejimində əhəmiyyətli sayda sifarişlərin işlənməsini təmin etmək iqtidarında olduğundan, onun tətbiqi ilə Bankın bütün filial şəbəkəsində qərarların qəbul edilməsi sürəti artmışdır. Yeni sistemdə Bank tərəfindən artıq yüzlərlə kredit verilmişdir.

2010-cu ildə "Unibank" Azərbaycan bankları arasında ilk dəfə olaraq "Millikart" prosessinq mərkəzi ilə real vaxt rejimində kart hesabları üzrə əməliyyatların tam sinxronlaşdırılmasına nail oldu. Artıq Bankın hər bir müştərisi istər kart hesabındakı vəsaitlərin artırılmasını, istərsə də plastik kartlarla kredit əməliyyatlarını daha operativ şəkildə yerinə yetirə bilər. Eyni zamanda onlar bank iş günü ərzində öz kart hesablarındakı qalıqlar və dövriyyədən çıxarılan vəsaitlər barədə məlumatları təzələyə biləcəklər. Bu cür əməliyyatların yerinə yetirilməsi üçün avtomatlaşdırılmış bank sistemində "Millikart" prosessinq mərkəzindən müəyyən məlumatların sorğulanması və kart hesablarında kifayət qədər vəsaitlərin olub-olmaması təyin edən bir neçə tətbiqi modul işə salınmışdır. Proqram təminatının yeni funksional imkanları hesabına bütün "Unibank" plastik kartları sahibləri kart hesablarından qeyri-kart hesablarına ödənişləri, banklararası və beynəlxalq nağdsız ödənişlər də daxil olmaqla, on-layn rejimində həyata keçirirlər. Bundan başqa, Bankın hər bir müştərisi öz kart hesablarının filialların kassaları vasitəsilə kreditləşdirilməsini yerinə yetirmək imkanı əldə edir. 2011-ci ildə isə "Unibank" plastik kart sahibləri bütün bu əməliyyatları, Banka baş çəkmədən belə, İnternet-bankinq sistemi vasitəsilə apara biləcəklər.

Ötən il qəbul olunan Bankın yeni strategiyası çərçivəsində ilk dəfə xüsusiləşdirilmiş İnnovasiyalar və bank texnologiyaları Şöbəsinin yaradılması haqqında qərar qəbul olunub. Yeni xidmətin institutlaşdırılması informasiya texnologiyalarının «Unibank»da prioritet təşkil etməsindən və bu sahədə ardıcıllığın təmin olunmasından xəbər verir.

# Törəmə şirkətlər

## UNİLEASING

| | |
|---|---|
| Nizamnamə kapitalı | 1 800 000 AZN |
| Qiymətli kağızların sayı | 900.000 ədəd |
| Nominal dəyəri | 2,00 manat |
| Bankın sahib olduğu qiymətli kağızların sayı | 600.000 ədəd, 66.67% |

2010-cu ilin nəticələrinə görə, Azərbaycanın lizinq sektorunun lideri - $41,1 milyonluq lizinq portfelinə malik olan «Unileasing» şirkəti - yerli bazarda öz payını 35,5%-ə çatdırıb. Ötən ilin ərzində lizinq portfelinin artımı 21,6% təşkil edib, şirkətin maliyyə bazarının bu seqmentindəki payı isə 5,5 faiz bəndi artıb. Bununla da «Unileasing» ötən il üçün lizinq portfeli üzrə planlaşdırdığı gəstəriciləri $3,5 mln. və yaxud 9,4% artırdı. Şirkət tərəfindən bu zaman ümumi hesabda 564 müqavilə imzalanıb, ölkə iqtisadiyyatına isə $30 milyona yaxın investisiya yatırılıb. Qeyd etmək lazımdır ki, «Unileasing»in Gəncə, Lənkəran, Şəki, Quba, Saatlını əhatə edən 5 regional bölməsi üzrə lizinq portfeli 2010-cu ilin sonuna $2,4 milyon təşkil edib.
2010-cu ilin nəticələrinin təhlili onu göstərir ki, lizinq müqavilələri üzrə orta müddət 47 ay təşkil edib, minimal lizinq müddəti - 12 ay, maksimal lizinq müddəti isə 60 ay olub.

| ƏSAS GÖSTƏRİCİLƏR | 31.12.2008 | 31.12.2009 | 31.12.2011 |
|---|---|---|---|
| Portfelin həcmi (AZN) | 37.4 | 31.8 | 35.1 |
| Bazarda payı (%) | 23.3 | 29.6 | 35.5 |

Hesabat dövründə «Unileasing» QSC-nin gəliri $2 milyon təşkil edib, məcmu kapitalı isə $9 milyonu ötüb. Şirkətin əsas fondlaşdırma mənbələri «EAST-WEST UNITED BANK SA», «M&T BANK», habelə «Unibank» Kommersiya Bankının kredit xətləri və «EximBank»ın ehtiyatları olub.

"Unileasing" şirkətinin təşəbbüsü ilə 2010-cu ildə Azərbaycan ərazisində fəaliyyət göstərən kredit təşkilatları, habelə obyektlərin mülkiyyətçiləri olan şəxslər tərəfindən satışa çıxarılmış lizinq/kredit obyektləri üzrə on-line məlumat bazası yaradılıb. Layihənin əsas məqsədi lizinq/kredit obyektlərinin satıcıları və alıcıları üçün vahid mühitin yaradılmasıdır. Layihə çərçivəsində istənilən fiziki və ya hüquqi şəxs www.resale.az saytında avtomobillərin, daşınmaz əmlakın, texnikanın, avadanlığın və digər obyektlərini yenidən satılması barədə məlumat yerləşdirə bilər. Potensial alıcılar isə öz növbəsində onlara lazım olan obyektləri ötən illərin kredit şərtləri əsasında almaq imkanı əldə ediblər.

## «UNİCAPİTAL»

| | |
|---|---|
| Nizamnamə kapitalı | 200.000 AZN, |
| Qiymətli kağızların sayı | 100.000 ədəd |
| Nominal dəyəri | 2,00 manat |
| Bankın sahib olduğu qiymətli kağızların sayı | 100.000 ədəd, 100 % |

2010-cu il ərzində qiymətli kağızlar bazarı yumşaq pul siyasəti və bir sıra struktur amillərinin dəyişkənliyi fonunda fəaliyyəti davam etmişdir. İlin son rübü ərzində Mərkəzi Bank tərəfindən müəyyən edilən uçot faiz dərəcəsinin və bankların məcburi ehtiyatlarının artırılması ilə pul siyasətinin sərtləşdirilməsi müşahidə olunmuşdur. Bu amillər qiymətli kağızların ilkin və təkrar bazar əməliyyatlarının sayına və həcminə, habelə qiymətli kağızların gəlirliyinə təsir göstərmişdir. Ötən il ərzində həyata keçirilən yumşaq pul və konservativ borclanma siyasətinin dövlət qiymətli kağızlarının ilkin və təkrar bazarının azalmasına təsir göstərməsinə baxmayaraq, korporativ qiymətli kağızlar bazarı ümumi iqtisadiyyatın və maliyyə sektorunun artımını üstələyən dinamika nümayiş etmişdir. Belə ki, korporativ qiymətli kağızlar bazarının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 67% artaraq 762.4 milyon manat təşkil etmişdir. Bu həcmin az olmayan bir hissəsi – 20% "Unicapital" şirkətinin dövriyyəsinin payına düşür.

Hesabat dövrü ərzində qiymətli kağızlar bazarına yeni emitentlərin cəlb olunması və bazarın əsasən yerli investor portfelinin genişlənməsi hesabına dəstəklənməsi müşahidə olunmuşdur. Belə ki, əvvəlki illərdə emintentlərin siyahısında banklar üstünlük təşkil etdiyi halda, cari ildə digər maliyyə təşkilatları və bank olmayan kredit təşkilatlarının da bazardan vəsait cəlb etməsi müşahidə edilmişdir. Hesabat ili ərzində səhm bazarı 37% artım nümayiş etdirmişdir. Həmçinin Bakı Fond Birjası və Milli Depozit Mərkəzinin mövcud ticarət və əməliyyat platformalarının optimizasiyası prosesləri davam etdirilmişdir. Nəticədə Fond Birjasının komissiya tarifləri mərhələli surətdə endirilmiş, ən əsası isə dövlət istiqrazları ilə əqdlərin əməliyyat xərcləri təqribən iki dəfə azaldılmışdır.

Cəmi 2010-cu ildə "Unicapital"ın dövriyyəsindən dövlət qiymətli kağızlarının payına əməliyyatların 19% faiz təsadüf etmişdir. Bu növ əməliyyatlarının həcmi 36,203 mln manata bərabər olmuşdur. Cəmi Azərbaycan fond bazarında "Unicapital" tərəfindən aparılan əməliyyatlar üzrə ümumi illik dövriyyə 191,014 mln. manatdan artıq olmuşdur. Bu zaman şirkət tərəfindən əldə olunan gəlir 46,463 min manat təşkil edib.





# Qılınc və qalxan

Orta əsrlərdə düzəldilən soyuq və müdafiə silahlarıdır.
Hər iki silahın üzərində nəbati naxışlar, qalxanda isə insan sifətli çıxıntılar var.

# Sosial məsuliyyət

"Unibank" ölkədə təkcə bank xidmətləri sahəsində deyil, həmçinin sosial məsuliyyət baxımından fəal olan bir şirkətdir. Milli iqtisadiyyata bilavasitə təsir göstərməklə bərabər, Bank 2010-cu ildə cəmiyyətin, ölkənin və vətəndaşların qarşısında duran aktual sosial vəzifələrin həllində yaxından iştirak edib. Bu zaman biz ictimai diqqəti cəlb etmək naminə bahalı kampaniyaların tərəfdarı olmamışıq və daha çox insanlara fayda gətirən sosial miqyaslı layihələrin təşəbbüskarı və sponsoru kimi çıxış etmişik.

# Sponsorluq

## "UNİBANK" PREMYER LİQASI

"Unibank" Premyer Liqasının (UPL) Baş sponsoru kimi Bank Azərbaycan futbolunun və korporativ sektorun tarixində ilk dəfə bir neçə sosial layihələrə imza atdı. Premyer Liqanın ötən ilki mövsümün ikinci dövrəsində "Unibank" tərəfindən "Hər vurulan qol – 100 AZN" kampaniyası keçirildi. Liqanın 27-ci turundan başlayaraq vurulan hər qol əvəzinə Bank korporativ sosial məsuliyyət proqramlarının büdcəsinə minlərlə vəsait əlavə etmişdir. Nəticədə "Unibank" tərəfindən Lənkəranda və Gəncədə uşaq futbolunun inkişafı layihələrinə, AFFA-nın Hakimlər Komitəsinin üzvlərinə və əlil uşaqlara 7 min manat həcmində maliyyə yardımı göstərilmişdir.

2010-cu ildə "Unibank" Premyer Liqasında ən prinsipial rəqiblər sayılan «Xəzər Lənkəran» və «Neftçi» futbol klublarının Lənkəranda keçirdikləri oyunun televiziya yayımının sponsoru oldu. Bu klublar arasında qarşılaşmaların on minlərlə futbol azarkeşi tərəfindən izlənilməsini nəzərə alaraq, Bank həmçinin Bakıdan Lənkərana bir sıra elektron və çap media-qurumlarının nümayəndələrinin səfərini təşkil etdi.

Kütləvi informasiya vasitələri ilə tərəfdaşlığın inkişaf etdirilməsi və Bankın idman sahəsində sponsor olduğu layihələrin təbliği məqsədi ilə 2010-cu ilin noyabrın 28-də futzal üzrə ənənəvi "UniCup" turnirinə start verildi. Jurnalistlər arasında təşkil olunan bu yarışda 10 komanda iştirak edib. İştirakçılar sırasına ANS, İctimai TV, "Futbol+", "Çempion", "Zaman", "Komanda", "Futbol Dünyası", RİA-Novosti və digər media-qurumların, eləcə də "Unibank" Futbol Liqası klublarının mətbuat katiblərindən ibarət olan komandalar daxil olublar. "UniCup" turnirinin məcmu mükafat fondu 4000 manat təşkil edib.

Bundan əlavə, UPL Baş sponsoru kimi Bank "Liqanın ən yaxşı oyunçusu" nominasiyasında hər ay futbolçuların çıxışlarının nəticələrinin dəyərləndirilməsi ənənəsini davam etdirmişdir. Təsis etdiyi mükafatları "Unibank" tam müstəqil və şəffaf şəraitdə təqdim etmişdir. Belə ki, ayın ən yaxşı futbolçusunun seçilməsi zamanı UPL-də çıxış edən klubların məşqçilərinin (40%), jurnalistlərin (40%), PFL-nın (10%) və "Unibank" (10%) işçilərinin rəyləri nəzərə alınıb. "Liqanın ən yaxşı oyunçusu" nominasiyasının qalibi olmuş futbolçulara PFL-in bürünc kubokları və "Unibank"ın 1111 AZN məbləğində pul mükafatları təqdim edilir.

## MİLLİ KİTAB MÜKAFATI

"Unibank" ölkənin mədəni irsinin qorunub saxlanılmasının və artırılmasının əhəmiyyətini dərk edir və imkan daxilində bu prosesdə iştirak etməyə çalışır. 2010-cu ildə "Unibank" Mədəniyyət və turizm nazirliyinin rəsmi dəstəyi ilə "Əli və Nino" Nəşriyyat evi tərəfindən təsis olunan Milli Kitab Mükafatının (MKM) rəsmi sponsoru oldu. Hər il ən yaxşı ədəbiyyat əsərlərinin müəlliflərinin təltif edildiyi bu layihənin sponsoru olaraq, Bank müasir Azərbaycan ədəbiyyatının inkişafına əhəmiyyətli pay verə biləcək bütün yazıçılara dəstək vermək niyyətindədir. MKM-ın sponsorları tərəfindən ayrılan vəsait ən yaxşı müəlliflərin dəstəklənməsinə və onların əsərlərinin dərc edilməsinə xərclənəcək.

Milli Kitab Mükafatı müsabiqəsinə təqdim olunan əsərlərin qiymətləndirilməsi ilkin mərhələdə peşəkar ekspertlər tərəfindən aparıldı. Nəticədə namizəd əsərlərin əvvəl "uzun siyahısı", sonra isə "qısa siyahısı" hazırlandı. Seçilən əsərlər xalq arasında nüfuz qazanan yazıçı və publisistlərdən ibarət Münsiflər Heyətinin diqqətinə verildi. MKM-in qalibləri 2011-ci ilin iyunun 4-də açıqlandı.

## "BAKU OPEN"

2010-cu ildə "Unibank" dünyanın 11 ölkəsindən onlarla şaxmatçını Azərbaycanda toplayan "Baku Open" şaxmat turnirinin sponsoru oldu. Gənclər və idman nazirliyinin dəstəyi ilə Azərbaycan Şahmat Federasiyası tərəfindən keçirilən bu yarış, ənənəvi beynəlxalq turnirlərin sırasına daxil olub və ölkənin intellektual gələcəyini təşkil edən şahmat oyununun inkişafında önəmli rol oynayır.

# Sosial aksiyalar

## "SOSİAL MƏSULİYYƏT VƏ SƏN"

Korporativ məsuliyyət proqramları çərçivəsində Bank əlil və kimsəsiz uşaqlara qayğı məqsədi daşıyan "Birliyə doğru" İctimai Birliyinin "Sosial məsuliyyət və Sən" ümummillli müsabiqəsinin baş sponsoru oldu. Bütün dünyada iyunun 1-də qeyd olunan Beynəlxalq uşaqları müdafiə günü münasibəti ilə keçən bu müsabiqə UNICEF-in iştirakı ilə təşkil olunub. Müsabiqənin əsas məqsədi cəmiyyətdə sosial məsuliyyət anlayışını düzgün istiqamətdə formalaşdırmaq idi. Belə ki, 2010-cu ilin may-iyun aylarında ictimai təsisatlar, qeyri-hökumət təşkilatları və ayrı-ayrı vətandaşlar müsabiqənin təşkilat komitəsinə, valideyn himayəsindən məhrum olan və əlil uşaqların problemlərinin həll edilməsini nəzərdə tutan ən orijinal ideyalar və 70-ə yaxın səmərəli layihələr təqdim etmişlər. Konkret olaraq, bu kateqoriyadan olan uşaqların sosial adaptasiyasına və onların sosial işə cəlb edilməsinə həsr edilən layihə müəllifləri "Unibank"dan pul mükafatları almışlar.

## «BLOQOSFER 2010»

Azərbaycan İnternetinin bloqçuları və yeni media mütəxəssislərinin bir araya gəlib fəaliyyətlərini müzakirə etməsi məqsədi ilə Bankımızın dəstəyi ilə 2010-cu ilin 10-12 Sentyabr tarixlərində "Bloqosfer-2010" forumu keçirildi. Xudat rayonunun Nabran qəsəbəsində keçən bu tədbir, "Qızmar, süst yaydan sonra iş mövsümünə bol-bol motivasiya və ideya ilə dolu başlayın!" şuarı altında təşkil olundu. Forum müzakirəyə çıxarılan mövzuların təfərrüatlı müzakirəsi, regionlardan olan böyük maraq və yeni media mütəxəssislərinin təşkilatlanması ilə yadda qaldı. Burada üslubundan və sahəsindən aslı olmayaraq (texnoloji, sosial, elmi, ümumi, biznes və s) hər bir bloqçu müzakirələrə qoşularaq təkliflərini vermək imkanına malik idi. "Bloqosfer 2010" Forumundan müvafiq qurumların eləcə də media mənsublarının diqqətinə 20-yə yaxın faydalı təklif və təşəbbüslər çatdırıldı. Forum iştirakçıları arasında "Unibank" tərəfindən müsabiqələr keçirildi və fərqlənən bloqçulara pul mükafatları verildi.

## İANƏLƏR

2010-cu ildə Bank öz korporativ saytında yeni açdığı İnternet Ödəmələr səhifəsi www.unibank.az vasitəsi ilə xeyriyyəçilik işinə qoşulmaq istəyən müştərilərin imkanlarını genişləndirdi. Belə ki, dünyanın bütün banklarının "Visa" və "MasterCard" plastik kartlarının sahibləri artıq on-layn rejimində Leykemiya ilə mübarizə üzrə İctimai birliyinə və "SOS Uşaq kəndləri Azərbaycan" humanitar təşkilatına ianə edə bilərlər. Ödənişlərin növündən asılı olmayaraq, hər bir istifadəçi, öz plastik kartı haqqında müvafiq məlumatı daxil etdiyi andan bir neçə saniyə ərzində və istədiyi həcmdə adı çəkilən humanitar qurumlara yardım göstərə bilər. Bu zaman, Banka heç bir rüsum ödənilmir, həyata keçirilən on-layn ödənişlərin etibarlılığına və təhlükəsizliyinə isə "Visa" və "MasterCard" beynəlxalq ödəniş sistemləri (VeriSign SSL şifrlənməsindən istifadə etməklə) tərəfindən nəzarət edilir



«Bankçılığın, eləcə də istənilən digər biznesin gələcəyi, cəmiyyətdə sosial rifahla, insanların həyat tərzi, mədəniyyətin inkişafı və millətin sağlamlığı ilə ayrılmaz şəkildə bağlıdır. Azərbaycan bank bazarının liderlərindən biri kimi, "Unibank" cəmiyyət qarşısında üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməklə özünü ölkənin sosial baxımdan ən əhəmiyyətli və ən etibarlı maliyyə institutlarından biri kimi tanıtmaqda davam edəcək».

**Eldar Qəribov**

Müşahidə Şurasının sədri

WWW.UNİBANK.AZ